№ 6 (949) 9-15 fevral 2017-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymәti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# AZƏRBAYCAN İLƏ BELÇİKA ARASINDA ƏMƏKDAŞLIQ BÖYÜK POTENSIALA MALİKDİR



Fevralın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belçikaya səfər etmişdir.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Belçika Krallığının Vaterlo şəhərində görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvanın abidəsini ziyarət etmişlər.

Ötən il fevralın 18-də açılışı olan bu abidənin ucaldılması Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın dəstəyi sayəsində mümkün olub. Şəhərin mərkəzi parkında ucaldılmış abidə Azərbaycanın Xalq Rəssamı Tahir Salahovun rəhbərliyi ilə heykəltəraş İmran Mehdiyev tərəfindən hazırlanıb. Abidənin özülündə Xurşidbanu Natəvanın Qarabağ şahzadəsi olması barədə məlumat var.

Fevralın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Brüsseldə Avropa Şurası Parlament Assambleyasının sabiq prezidenti, Niderland-Azərbaycan Dostluq Qrupunun sədri Rene Van der Linden, fevralın 6-da isə Belçika Kralı Filip, Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şevçoviç ilə görüşmüşdür.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 6-da Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ilə görüşü olub.

Görüşdən sonra Azərbaycan Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk mətbuata birgə bəyanatla çıxış ediblər.

Fevralın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Brüsseldə Avropa Komissiyasının prezidenti Jan-Klod Yunker ilə görüşü olub. Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıqdan məmnunluq bildirildi, əlaqələrin bundan sonra da inkişaf etdiriləcəyinə əminlik ifadə olunmuş, vurğulanmışdır ki, Azərbaycan ilə Avropa İttifaqı arasında yeni əməkdaşlıq və tərəfdaşlıq sənədi üzərində iş gedir və bu sənəd imzalanandan sonra münasibətlərimiz bütün sahələrdə daha da möhkəmlənəcək və genişlənəcək.

Söhbət zamanı Azərbaycanın dünya ölkələri, o cümlədən Avropa İttifaqı ilə sivilizasiyalar və mədəniyyətlər arasında dialoq sahəsində çox yaxşı əməkdaşlıq əlaqələrinin olduğu qeyd edilmişdir.

Görüşdə Azərbaycanın Avropa İttifaqı ilə, eyni zamanda, təhsil və humanitar sahələrdə də yaxşı əməkdaşlıq əlaqələrinin qurulduğu bildirilmişdir. Söhbət zamanı Azərbaycanda iqtisadiyyatın və ixracın şaxələndirilməsinin prioritet məsələ olduğu diqqətə çatdırıldı, enerji və nəqliyyat sahələrində əməkdaşlıq, həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

**Azərbaycan Prezidenti İlham Əliyevin BƏYANATINDAN:**

- Biz "Cənub Qaz Dəhlizi" layihəsinin inkişaf etdirilməsi üçün uğurla əməkdaşlıq edirik. Bu, hazırda Avropada həyata keçirilən ən böyük infrastruktur layihələrindən biridir. Həmin layihə 40 milyard dollardan artıq vəsaitin sərmayə kimi qoyulmasını tələb edir. Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi və şaxələndirilməsi layihəsidir. Şaxələndirilmə dedikdə mən yalnız marşrutları deyil, o cümlədən mənbələri də nəzərdə tuturam. Azərbaycanın nəhəng qaz ehtiyatları var və ölkəmiz Avropa bazarı üçün yeni alternativ təbii qaz mənbəyidir. Mən cənab prezidentə məlumat verdim ki, Cənub Qaz Dəhlizinin həyata keçirilməsi, layihənin bütün dörd seqmenti uğurla irəliyə doğru gedir və ümidvarıq ki, əlavə səylərlə biz bu layihənin icrasını sürətləndirəcəyik.

Cənab prezidentin qeyd etdiyi kimi, Avropa bizim əsas investorumuzdur. Azərbaycan olduqca münbit sərmayə mühitini yaradıb. İyirmi beş il əvvəl müstəqilliyimizi bərpa etdikdən sonra iqtisadiyyatımıza 200 milyard dollardan artıq vəsait qoyulub. Eyni zamanda, Avropa bizim əsas ticarət tərəfdaşımızdır. Biz bir çox Avropa ölkələrini neftlə təchiz edirik və ümidvarıq ki, yaxın zamanlarda təbii qazımızı da çatdıracağıq.

## Neftdən gəlirimiz 125 milyard dollara yaxınlaşdı



Azərbaycan Dövlət Neft Fondu (ARDNF) Azəri-Çıraq-Günəşli (AÇQ) yataqlar bloku və "Şahdəniz" qaz kondensat yatağından 2017-ci ilin yanvarın 1-nə əldə edilən gəlirlərini açıqlayıb.

ARDNF-dən verilən məlumata görə, ötən il AÇQ yataqları üzrə fond 5 milyard 100 milyon ABŞ dolları, "Şahdəniz" yatağı üzrə isə 64 milyon ABŞ dolları həcmində gəlir əldə edib.

Ümumiyyətlə, 2001-ci ildən etibarən 01.01.2017 tarixinə qədər AÇQ yataqlar bloku üzrə 122 milyard 109 milyon ABŞ dolları, "Şahdəniz" yatağı üzrə isə 2 milyard 506 milyon ABŞ dolları həcmində gəlir əldə olunub.

## Sahibkarlığın inkişafı üzrə Dövlət Proqramı hazırlanıb

İqtisadiyyat Nazirliyi 2021-ci ilə qədər dövr üçün sahibkarlığın inkişafı Dövlət Proqramı layihəsini hazırlayıb. Bu barədə hökumətdən məlumat verilib.

"Nazirlik 2017-20-ci illəri əhatə edən Azərbaycanda sahibkarlığın inkişafı Dövlət Proqramı layihəsi hazırlayıb. Hazırda sənəd Prezident Administrasiyasında ekspertizadadır", - deyə hökumətdən qeyd ediblər.

Məlumata görə, Proqramda ölkədə sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşmasına yönələn tədbirlər və s. addımlar nəzərdə tutulur.



## Dövlət 700 milyon manatlıq istiqraz buraxır




Maliyyə Nazirliyi iqtiqraz buraxılışı yolu ilə 700 milyon manat borc almağı planlaşdırır. 27 yanvar 2017-ci il tarixində Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası (Palata) tərəfindən Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin hər birinin nominal dəyəri 100 (yüz) manat olan 6 000 000 (altı milyon) ədəd dövlət qısamüddətli istiqrazlarının buraxılışı 54S qeydiyyat nömrəsi ilə dövlət qeydiyyatına alınmışdır.

Palata tərəfindən həmçinin 27 yanvar tarixində Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin hər birinin nominal dəyəri 100 (yüz) manat olan 1 000 000 (bir milyon) ədəd dövlət ortamüddətli istiqrazlarının buraxılışı 55S qeydiyyat nömrəsi ilə dövlət qeydiyyatına alınmışdır.

## Dünya Bankı: Azərbaycanda kredit götürən tələbələrin faiz ödəmə yükü azaldılıb

Azərbaycanda tələbələrə təhsil haqqının ödənilməsi təcrübəsindən digər ölkələr də bəhrələnə bilər.

Bunu Dünya Bankının təhsil üzrə eksperti Kristian Aedo "Maarifçi" Tələbə Kredit Fondunun fəaliyyəti və Azərbaycanda tələbə kreditləri proqramı" mövzusunda keçirilən tədbirdə deyib. Ekspert bildirib ki, Azərbaycanda təhsil krediti götürən tələbələrin faiz ödəmə yükü azaldılıb: «Nazirlik bu sahədə bizə məlumat verdikdə onlara analitik dəstəyin göstərilməsi qərarına gəldik. Biz kreditlərin verilməsi ilə bağlı bütün məsələləri müzakirə etdik və nəticələri bu sahədə ən yaxşı təcrübələrdən istifadə etməsi üçün nazirliyə təqdim etdik».



# 13 min hektar çay plantasiyası salınacaq



Azərbaycanda bitkiçiliyin ənənəvi sahələrindən biri də çayçılıqdır. Vaxtilə bu sahədə şan-şöhrət qazanan ölkəmizdə çayçılığın tənəzzülə uğraması indi özünü daha qabarıq göstərir.

Çayçılığın əvvəlki şöhrətinin geri qaytarılması üçün ilk növbədə yeni plantasiyalar salınmalı, məhsullar yerli xammal əsasında istehsal və ixrac olunmalıdır.

Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bu barədə danışan Prezident İlham Əliyev deyib: “Biz özümüzü keyfiyyətli çayla təmin etməliyik və xaricə də Azərbaycanda yetişdirilən çay ixrac etməliyik. Çünki hazırda biz daha çox xaricdən gətirilən çayı burada paketləyib ixrac edirik. O da yaxşıdır. Hər halda çayı idxal etməkdən daha yaxşıdır. Ancaq çalışmalıyıq ki, bizim emal müəssisələri yerli məhsul əsasında fəaliyyət göstərsin və bu, təkcə çayçılığa aid deyil”.

Kənd Təsərrüfatı Nazirliyi Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun direktor müavini Vahid Əliyev bu barədə fikirlərini bölüşüb. O bildirib ki, hazırda Çin çay istehsalında 36,2 faizlik göstərici ilə dünyada liderdir. Bu bitkinin əkininə dünya ölkələrində böyük maraq var. 2005-2014-cü illərdə dünyada çayın əkin sahəsinin 803 min 602 hektar, istehsalın isə 1 milyon 711 min 510 ton artması bunu təsdiqləyir.

Azərbaycanda çayçılığın şöhrətini geri qaytarmaq üçün atılan addımlardan danışan ekspert bildirib ki, çayçılığın təşkilinin, çay istehsalının, habelə çay məhsullarının keyfiyyətinin təmin edilməsi və digər məsələlərin tənzimlənməsi məqsədilə 2002-ci il dekabrın 17-də “Çayçılıq haqqında” Azərbaycan Respublikasının Qanunu təsdiqlənib. Çayçılığın stimullaşdırılması ilə bağlı tədbirlər çay əkini sahələrinin artırılmasına, əhalinin quru çaya olan tələbatının böyük bir hissəsinin yerli istehsal hesabına ödənilməsinə, yüksək keyfiyyətli çayın ixracına, yeni iş yerlərinin açılmasına imkan yaradan sosial-iqtisadi məsələ kimi mühüm əhəmiyyətə malikdir. Bu sahənin inkişaf etdirilməsi üçün “Azərbaycan Respublikasında 2017-2026-cı illərdə çayçılığın inkişafına dair Dövlət Proqramı”nın layihəsi işlənib hazırlanır. Proqramın həyata keçirilməsi nəticəsində çayçılığın inkişaf etdirilməsi ilə bağlı görülən işlər sürətlənəcək, çay plantasiyalarının əkin sahəsi 13 min hektar artırılaraq 17 min hektara çatdırılacaq.

# 320 hektar zeytun bağları salınır



Azərbaycanda zeytunçuluğun inkişafı üçün Abşeron ideal ərazi hesab olunur. Rayonda bu sahəni inkişaf etdirmək üçün həm təcrübə, həm də əlverişli mühit və imkanlar var.

Abşeron Rayon İcra Hakimiyyətindən verilən məlumata görə, rayonun Aşağı Güzdək bələdiyyəsinin dövlət torpaq fonduna məxsus 320 hektarı zeytun bağlarının salınması məqsədilə “Abşeron Aqro” MMC–yə ayrılıb. Artıq ərazinin 25 hektarı əkinçilik üçün tam yararlı vəziyyətə gətirilib və burada 9 min zeytun tingi əkilib. Ümumiyyətlə, ilin sonunadək əkiləcək tinglərin sayı 120 minə çatdırılacaq.

Mütəxəssislər bildirirlər ki, yeni əkilmiş zeytun ağacları ən azı 3 ildən sonra bar verəcək. Zeytun ağacları hətta ən sərt hava şəraitinə belə dözümlüdür. Ağaclara kifayət qədər su verilsə, həm ilbəil məhsuldarlıq artacaq, həm də meyvələri daha iri olacaq.

Hazırda “Abşeron Aqro” MMC-nin təsərrüfatında suvarma şəbəkəsi yaratmaq məqsədilə açıq su anbarı tikilir. Taxtakörpü–Ceyranbatan kanalından əkin sahəsinə su ötürülməsi üçün nasosxananın layihəsi üzərində iş aparılır. Bu işlər fevral ayının sonunda başa çatmalıdır. Rayonda gələcəkdə emal təsərrüfatının yaradılması da planlaşdırılır.

# Azərbaycan balı ərəb ölkələrində bəyənilib

Bu ildən etibarən Azərbaycandan həyata keçirilən ixrac missiyaları çərçivəsində ilk sifariş Birləşmiş Ərəb Əmirliklərinin Dubay əmirliyindən irəli sürülüb.

Bunu açıqlamasında Azərbaycan Arıçılar Assosiasiyasının sədri Bədrəddin Həsrətov deyib.

"Düzdür, Azərbaycanın təbii potesialına görə hazırda ölkədə kifayət qədər bal istehsal edilmir. Bununla belə, ixrac imkanlarını da nəzərdən keçiririk. "Made in Azerbaijan" brendinin təşviqi çərçivəsində iki ixrac missiyasında iştirak etmişik. Biz Dubay və Almaniya bazarlarında Azərbaycan balına olan tələbatı araşdırmaq niyyəti ilə bu səfərlərə yollanmışdıq. Artıq Dubaya bal idxalına dair sifariş qəbul etmişik", - deyə B.Həsrətov əlavə edib.

Onun sözlərinə görə, 2017-ci ildə Azərbaycandan Yaponiyaya 6 ton bal ixrac edilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən “Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi” layihəsi çərçivəsində çap olunub.

# Telekommunikasiya inqilabına aparan yol

Dünyada informasiyanın ötürüləcəyi məsafə nəzərəçarpacaq dərəcədə artır. İnsana elə gəlir ki, bu, mükəmməlliyin son zirvəsidir və bundan da yaxşısını düşünüb kəşf etmək artıq mümkün deyil. Lakin telekommunikasiyalar və İT texnologiyalar sahəsində çalışan mütəxəssislər başqa cür fikirləşir və yeni tədqiqatlarını davam etdirirlər. Onlar informasiyanın toplanması, saxlanması və ötürülməsinin keyfiyyətinin yaxşılaşdırılması, yeni informasiyalaşdırma mexanizmlərinin yaradılması üzərində işləyirlər. Telekomunikasiyalar və İT texnologiyalar elə sürətlə inkişaf edir ki, burada baş verən dəyişikliklər çox qısa zaman kəsiyində həyata keçir. Bu gün telekommunikasiyalar dünya iqtisadiyyatının daha effektiv və dinamik inkişaf edən sahələrindəndir.

Ölkəmizdə telekommunikasiya bazarında sahibkarlıq fəaliyyəti ilə məşğul olan Amerika şirkəti Cybernet Communication Inc.-in filialı olan Avirtel MMC, KATV1, “Delta Telecom” və s. kimi şirkətlər fəaliyyət göstərir.

**Yeni nəslin operatoru**

Amerika şirkəti Cybernet Communication Inc.-in filialı olan Avirtel MMC 2000-ci ildə ən qabaqcıl İKT xidmətləri təqdim etmək məqsədilə təsis olunmuşdur. Etibarlı və təhlükəsiz qoşulmanı təmin edən Avirtel kompleks məhsul və xidmətlər təklif etməklə, öz müştərilərinə effektiv ünsiyyət qurmağa yardım edir. Müştərilər Avirtel-in geniş zolaqlı sürətli internet xidmətlərindən, IPTV, 088 toll free, zəng mərkəzi, biznes proseslərinin idarə edilməsi proqramı (BPMS), mobil həllər, IT outsourcing, IKT konsultasiya və təlim, veb dizayn, reklam, İKT təhlükəsizlik xidmətləri, LED həllər və geniş çeşidli məhsullarından faydalana bilirlər. Avirtel şirkəti internet provayder kimi ilk addımlarını atmağa başladıqda ölkədə az sayda internet provayder fəaliyyət göstərirdi və illər keçdikcə xidmətin son istifadəçiyə çatdırılması sahəsində ən qabaqcıl texnologiyalarla ayaqlaşan şirkət bu sahədə öz sözünü deməyi bacarmışdır. Belə ki, rəqabətə meyilli və inkişafyönümlü bir şirkət olaraq Avirtel hazırda Bakıda və ölkəmizin 40 regionunda ADSL, Fiber Optik, SHDSL, WiFi, VDSL, VDSL2 texnologiyaları ilə internetə yüksək keyfiyyətli və sürətli qoşulmanı təmin edir. Eyni zamanda, Avirtel 2016-cı ildən Sürətli İnternet layihəsini həyata keçirməyi və son istifadəçilərə mövcud telefon xətti üzərindən çox sərfəli şərtlərlə 50 Mb və daha yuxarı sürətlə İnternet xidmətləri təqdim etməyi planlaşdırır. İnternetin müasir dövrümüzdə elm, mədəniyyət, təhsil, iqtisadiyyat, ümumiyyətlə bütün sahələrdə həyatımızı, işlərimizi sadələşdirdiyi danılmazdır.

Düzgün istifadə edilmədikdə internetə giriş təşkilatlar, təhsil müəssisələri, eləcə də ev istifadəçiləri üçün risk törədə bilər. Bəzi araşdırmalara görə, istifadəçilərə nəzarət edilmədikdə işdə 3 saata qədər vaxt itirilmiş olur. Avirtel uşaqlı ailələrə, şirkətlərə, təhsil müəssisələrinə AvirDNS xidmətini təklif edir. Bu xidmət vasitəsilə istifadəçilər istədikləri məzmunlu saytlara qadağa qoya bilir, beləliklə də tabeliyində olan digər istifadəçiləri internetdə pis vərdişlərdən, vaxt itkisindən qorumuş olurlar.

Avirtel öz müştərilərinə Fiber Optik xətləri və ADSL üzərindən 180-dən artıq telekanalın rəqəmsal yayımını təqdim edir. AvirTV Azərbaycan, türk, rus, ingilis və fransız dillərində onlarla kanala təmiz səs və görüntü imkanları ilə baxmağa imkan yaradır. Rəqəmsal TV-nin kabel televiziyalarından fərqi ondan ibarətdir ki, kabel TV-də siqnal retranslyatorlardan, gücləndirici və kabellərdən keçərkən təhrif olunur, rəqəmsal yayımda isə bu hal baş vermir, beləliklə tam keyfiyyətli yayımla müxtəlif dilli kanalları izləmək olur.

Avirtel-in vebsayt dizayn və proqramlaşdırma komandası Java, C, C++, Python, Ruby, Javascript, PHP, HTML5,CSS3, Jquery, Ajax, CMS sahəsində ən yüksək bacarıqlara malikdir. Avirtel müştəriləri üçün istifadəsi rahat, istədiyiniz dizaynlı və istənilən ekran ölçüsünə uyğun olan vebsaytlar hazırlayır. Şirkət təkcə vebsaytın hazırlanması deyil, həmçinin öz domen və hosting xidmətlərini də təklif edir. Vebsaytların durmadan artdığı bir dövrdə axtarış sistemlərində ilk sıralarda olmaq, rəqiblərlə müqavimətə davam gətirmək qəliz məsələyə çevrilmişdir. Buna görə də Avirtel öz vebsayt xidmətlərinə müştəriləri üçün SEO optimizasiyasını da daxil etmişdir. Beləliklə, şirkət müştərilərə vebsayt hazırlanmasında sıfırdan SEO optimizasiyasına qədər öz AvirWeb xidmətini təklif edir.

Avirtel istər internet, sosial media, istərsə də TV, radio, qəzet, jurnal və ya çöl reklamları olsun, hər bir tərəfdaşına xidmət göstərir. Şirkət müştəriləri üçün tam marketinq və brendinq strategiyaları, eləcə də satış elanları hazırlayır.

Həmçinin, Avirtel işıq sənayesində aparıcı texnologiya olan LED monitorlar quraşdırma üzrə ixtisaslaşır. Şirkətin komandası işıqlandırma sənayesi, istehlakçı elektronikası və İKT sahəsində təcrübəyə malik mütəxəssislərdir. Avirtel korporativ müştərilərə IT outsourcing xidmətlərini də təklif edir.

Avirtel-in təhlükəsizlik xidmətlərinə giriş-çıxışa nəzarət sistemləri, IP video nəzarət sistemləri və GPS izləmə daxildir.

Beynəlxalq səviyyədə tanınmış toll free nömrələri turizm şirkətləri və agentliklərinin keçirdikləri marketinq və PR kampaniyalarına böyük dəstək ola bilər. Bu nömrələr turistləri, eləcə də əməkdaşlıq etmək istəyən digər şəxsləri toll free nömrə sahibi olan agentlik və şirkətlərlə daha çox əlaqə qurmağa cəlb edə bilər. Belə ki, Avirtel toll free rabitə operatorunun təyinatı digər rabitə operatorlarından fərqlənir. Toll free abunəçisinə zəng edən tərəf pulsuz ünsiyyət qura bilir, danışıqlar üzrə hesablanan ödənişi isə zəng edilən tərəf, yəni toll free nömrəsinin sahibi edir. Toll free nömrəsini özünüzün şəhər və ya digər mobil nömrələrinizə uyğun seçə bilərsiniz. Toll free nömrəsinə sahib olan şəxslərin üstünlüklərindən biri də odur ki, zənglər, eyni zamanda, baş ofisə və filiallara yönlənə və ya bütün zənglər bir mərkəzdən idarə oluna bilər. Avirtel fəaliyyəti müddətində həyata keçirdiyi uğurlu layihələr sayəsində müstəqil təşkilatlar tərəfindən bir sıra nüfuzlu mükafatlar, sertifikat və təltifnamələrə layiq görülmüşdür. 2 il ardıcıl olaraq “İlin İnternet Provayderi”, Toll Free xidmətinin uğurlu tətbiqinə görə “Brand Award”, “Azeri Business Award”, “Azərbaycanda rabitə sisteminin təkmilləşdirilməsində göstərdiyi xidmətlərə görə” Qızıl Buta, Qız Qalası, korporativ saytlar nominasiyasında Millinet 2015-in qalibi, Bakutel 2015 sərgisində “Ən füsunkar stend” mükafatları və s. almışdır. Avirtel gələcək perspektivdə yeni texnoloji showroom müştərilərə təqdim edəcəkdir. Hazırda isə Avirtel-in Apple sertifikatlı mütəxəssisləri Bakı və respublikanın bölgələrindən müxtəlif problemli Apple cihazlarının keyfiyyətli və tam zəmanətli təmirini həyata keçirir.



**Tələbata uyğun müəssisə yaradılıb**

XXI əsrin astanasında dünya üzrə peyk rabitəsi istiqamətində kifayət qədər bahalı kanallardan qənaətlə istifadə edən peyk rabitə vasitələri tətbiq olunurdu. Odur ki, Azərbaycanda da analoji texnologiyanın istifadəsinə ehtiyac duyulurdu.

Delta Telecom 2000-ci ildən telekommunikasiya və informasiya texnologiyaları bazarında müvəffəqiyyətlə fəaliyyət göstərən Qafqaz regionunda yeganə aparıcı operatordur. Müasir Delta Telecom korporativ sifarişçilər, dövlət strukturları, banklar, özəl müəssisələr, 78% Qafqaz İSP-ləri və Azərbaycanda olan bütün İSP-lər üçün kompleks şəkildə həllərin tətbiqi, həmçinin istənilən xidmətin keyfiyyətinin artırılması məqsədilə gün ərzində 24 saat fəaliyyət göstərən quraşdırıcı və servis-qəza xidmətləri təşkil edir. Delta Telecom EUTELSAT-ın Beynəlxalq Peyk Rabitə Operatorunun regionda rəsmi distributoru və bütün Qafqazda peyk kanallarının icarəsi, istifadəsi, peyklərdəki transponderlərin icarəsi istiqamətində EUTELSAT-ın səlahiyyətli nümayəndəsidir. Müəssisə Azərbaycan ərazisində layihələr üzrə işlərin aparılması üçün lazım olan dövlət lisenziyaları və sertifikatlarına yiyələnmişdir. Şirkətin müştəriləri Azərbaycan Beynəlxalq Bankı, Kapital Bank, Bank Respublika, Vergilər Nazirliyi, “Azercot” şirkəti, Respublika Seysmik Mərkəzi, Dövlət Gömrük Komitəsi, XTMD, Daxili İşlər Nazirliyi, Dövlət Sərhəd xidməti, Yol polisi, Fövqəladə Hallar Nazirliyi, Respublikanın bütün rayonlarının İcra orqanları və sairə təşkilat və müəssisələrdir.

Hazırda Delta Telecom-un magistral şəbəkədə məlumatları aktual ötürmə sürəti Azərbaycan İnterneti seqmentinin real tələbatlarını dəfələrlə ötür. Delta Telecom şəbəkəsində məlumatların ötürülməsinin real sürəti 1 saniyədə 33 DVD daşıyıcısının tam tutumundakı informasiyaya bərabərdir.

Bunu qeyd etməliyik ki, ötürülən trafikdə 24 saat ərzində 10 saniyədən artıq dayanma imkansızdır. Delta Telecom regionlarda və dağlıq ərazilərdə yerləşən yüzlərlə kəndi telefoniya, peyk və internet xidmətləri ilə təmin edir. Bu isə öz növbəsində dağlıq və ucqar ərazilərdə olmasına baxmayaraq, istənilən məlumatın əldə edilməsi deməkdir.

Regionda birinci WiMAX texnologiyası layihəsinin həyata keçirilməsi məhz Delta Telecom fəaliyyətinin nəticəsidir.

Bununla da Azərbaycanda ilk dəfə simsiz, genişzolaqlı, limitsiz internetdən istifadənin əsası qoyulmuşdur.

2004-cü ildən bu günədək Delta Telecom internet xidməti qiymətlərində 361 dəfə endirimlər etmişdir. İstənilən səviyyədə alternativ əldəetmə bacarığımız, daha çox satış ilə minimal mənfəət əldəetmə siyasətimiz nəticəsində müəssisəmizin birinciliyi qorunub saxlanılır.

**Şirkətin fəaliyyətində yeni istiqamət**

KATV1 şirkəti 2005-ci ildə təsis edilib,həmin ildə Milli Televiziya və Radio Şurası tərəfindən kabel yayımı üçün lisenziya verilmişdir. Hal-hazırda şirkət tərəfindən KATV1 xidmətlərinə qoşulmaq üçün 90 km. optik, 80 km. magistral və 140 km. submagistral xətt çəkilib. Bu, müəllif hüquqlarının qorunub saxlanıldığı leqal kommersiya televiziyası erasıdır. KATV1 şirkəti Azərbaycanın telekommunikasiya bazarında əhaliyə müxtəlif növ xidmətlər təklif edir və onun xidmətlərindən Bakı, Gəncə, Mingəçevir və Sumqayıt şəhərlərinin sakinləri istifadə edir. KATV1 öz müştərilərinə fiber-optik şəbəkələr üzərindən İnternet şəbəkəsinə məhdudiyyətsiz 100 Mbit/s sürətli qoşulma xidmətini təqdim edir. Qeyd etmək lazımdır ki, ADSL texnologiyası ilə müqayisədə “optika”nın bir sıra üstünlükləri var. Seçilən paketdən asılı olaraq “optika”nın sürəti ADSL-dən 4-5 dəfə yüksək olar bilər. Qeyd etmək lazımdır ki, “optika internet” üçün ayrıca fiber-optik xətlərdən istifadə olunur, ADSL texnologiyasında isə köhnə telefon xətləri istifadə olunur ki, bu da internetin sürətinə olduqca təsir edir. KATV1-in təklif etdiyi “optika” telefon xəttinin keyfiyyətindən asılı deyil, çünki istifadəçilər keyfiyyətli kabellərdən qurulmuş xüsusi bir infrastruktura qoşulur. Bundan əlavə, əks yükləmə sürəti (upload speed) də bir neçə dəfə yüksəkdir ki, bu da video-ünsiyyət, faylların göndərilməsi və s. bu kimi əməliyyatların reallaşdırılması üçün çox vacibdir. Yaxın perspektivlərdə şirkət fəaliyyət coğrafiyasının genişləndirilməsi ilə yanaşı, eləcədə öz fəaliyyətində telekommunikasiya texnologiyaları sahəsində dünyada son nailiyyətlərin tətbiqini planlaşdırır. Əhalinin bütün seqmentləri üçün dünya telekommunikasiya birliyinə girişin təmin edilməsi şirkətin əsas nailiyyətidir

Belə ki, hazırda dünyada telekommunikasiyalar sadəcə baza xidmətindən daha böyükdür. O, cəmiyyətin inkişafına, yaxşılaşmasına və insanların həyat keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Və artıq qətiyyətlə demək olar ki, onun rolu sabahın dünyasında daha da güclənəcək.

**Nailə CABBAROVA**



# AZƏRBAYCANLA QƏTƏR ARASINDA ƏLAQƏLƏR YÜKSƏK SÜRƏTLƏ İNKİŞAF EDİR





31 yanvar 2017-ci il

***Yanvarın 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qətər Dövlətinin xarici işlər naziri Şeyx Məhəmməd bin Əbdürrəhman Əl-Taninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Bu görüş Azərbaycan ilə Qətər arasında münasibətlərin inkişafında mühüm rol oynamış, eyni zamanda, əməkdaşlığımızın perspektivlərinin müzakirəsi üçün yaxşı imkanlar yaratmışdır. Prezident İlham Əliyev demişdir ki, siyasi əlaqələrimiz yüksək səviyyədədir, tərəfdaşlıq münasibətlərinə söykənir və iqtisadi, ticarət, turizm və digər sahələrdə əməkdaşlığımızın da genişləndirilməsi üçün yaxşı imkanlar var. Dövlətimizin başçısı bu baxımdan investisiya imkanlarının araşdırılmasının əhəmiyyətini qeyd etmişdir.***

***Qətərin xarici işlər naziri Azərbaycanda gedən inkişaf proseslərinin Qətərdə böyük maraqla izlənildiyini bildirmişdir. İqtisadi əməkdaşlığımıza toxunan qonaq Azərbaycan-Qətər Hökumətlərarası Birgə İqtisadi, Ticarət və Texniki Komissiyasının konstruktiv şəkildə fəaliyyət göstərəcəyinə ümidvar olduğunu bildirdi. Azərbaycan ilə Qətər arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu deyən Şeyx Məhəmməd bin Əbdürrəhman Əl-Tani əlaqələrimizin bundan sonra da daim inkişaf edəcəyinə əminliyini ifadə etmişdir.***

**Qətər Dövləti Ərəbistan** yarımadasının şimal-şərqində, Fars Körfəzinin qərb sahilində yarımadada yerləşir. Cənubda Səudiyyə Ərəbistanı, Fars Körfəzində Bəhreyn, İran və BƏƏ ilə həmsərhəddir. Ərazisi 11,586 km$^2$, əhalisi 2 258 283 (iyul 2016) nəfərdir ki, onlardan 40%-ni ərəblər, 18%-ni pakistanlılar, 18%-ni hindlilər, 10%-ni iranlılar və 14%-ni başqaları təşkil edir.

Ölkə ərazisi 7 **inzibati** rayondan ibarətdir. **Qətərin paytaxtı** Doha şəhəridir ki, onun da əsası 1987-ci ildə qoyulmuşdur, paytaxtda– 718 min (2015) nəfər əhali yaşayır.

**Qətərin əsas şəhərləri** Əl-Vakra, Əl-Xur, Şimal, Duxandır. Ölkədə rəsmi dil ərəb dilidir, əhalinin 90%-i müsəlmandır.

**Qətər Dövlətinin Milli bayramları –**18 dekabr (Əl-Təni ailəsinin hakimiyyətə gəlməsinin ildönümü) Milli gün, 1971-ci ildən 3 sentyabr Müstəqillik günü kimi qeyd olunur.

**Əsas hakimiyyət –** Dövlət başçısı Şeyx Təmim bin Haməd bin Xəlifə Əl-Tənidir, 25 iyun 2013-cü ildən Qətər Dövlətinin Əmiridir, Baş nazir, daxili işlər naziri Şeyx Abdulla bin Nasir bin Xəlifə Əl-Tənidir.

**Ölkədə** 2003-cü ilədək 1970-ci ildə qəbul edilmiş və 19 aprel 1972-ci ildə dəyişikliklər aparılmış Müvəqqəti Konstitusiya qüvvədə olmuşdur. 1999-cu ilin iyul ayında Əmir Həmədin sərəncamına əsasən yaradılmış komissiyanın tərtib etdiyi yeni konstitusiya layihəsi 2003-cü ilin aprel ayında ümumxalq referendumuna çıxarılmış və 96,6% səs çoxluğu ilə qəbul edilərək, 8 iyun 2004-cü il tarixində Əmir tərəfindən təsdiq edilmişdir. Konstitusiya 9 iyun 2005-ci ildə qüvvəyə minmişdir.

**Ölkədə Dövlət quruluşu mütləq monarxiyadır. 1800-cü ildən Əl-Tənilər ailəsi Qətərdə hakimiyyətdədir.**

**Qətər Dövlətinin Ali qanunverici orqanı** 1972-ci ildə yaradılmış birpalatalı Məsləhətçi Şuradır. Məsləhətçi Şuranın üzvləri Əmir tərəfindən 4 il müddətinə təyin edilir. 2005-ci ildə qüvvəyə minmiş yeni konstitusiyaya əsasən, qanunverici orqan Şura Məclisidir. 45 millət vəkilindən ibarət olacaq Şura Məclisinin 1/3-i ümumxalq səsvermə yolu ilə, qalan hissəsi isə Əmir tərəfindən təyin ediləcəkdir. İlk seçkilərin 2016-cı ildə keçirilməsi nəzərdə tutulsa da, 2019-cu ilədək təxirə salınmışdır.

**Qətərdə məhkəmə orqanı olaraq Apelyasiya Məhkəməsi fəaliyyət göstərir. Ölkədə siyasi partiyalar qeydə alınmamışdır.**

**Qətərin tarixinə qısa bir nəzər:**

Qətər Dövləti 3 sentyabr 1971-ci ildə öz müstəqilliyini elan etmişdir. Osmanlı imperatorluğuna qədərki dövrdə Qətər Bəhreynin nəzarəti altında olmuş, 1872-ci ildən 1915-ci ilədək Osmanlı hakimiyyəti altında olmuşdur. 1916-cı ildə imzalanmış müqaviləyə görə, Qətər Böyük Britaniyanın protektoratına keçmişdir. Qətər Dövləti əsasən mirvarilərlə tanınan Britaniya protektoratından neft və qaz gəlirləri ilə varlanmış müstəqil dövlətə çevrilmişdir. 2001-ci ildə Qətər Səudiyyə Ərəbistanı və Bəhreynlə mövcud olan sərhəd problemlərini həll edərək, neft və qaz gəlirləri sayəsində əhalinin adam başına düşən gəlirlərinə görə dünyada birinci yeri tutmuşdur.

**Ölkənin xarici siyasəti haqqında**

Qətər Dövləti Körfəz regionunun üzləşdiyi problemlər və təhlükələrin aradan qaldırılmasında fəal iştirak edərək, Körfəz Əməkdaşlıq Şurasının gücləndirilməsinə böyük əhəmiyyət verir. Qətər ərəb həmrəyliyi və ərəb ölkələri arasında qarşılıqlı inam və ehtiram münasibətlərinin yaradılması istiqamətində səylərini əsirgəmir. Dövlətlər arasında mövcud olan münaqişələrin sülh yolu ilə həllinin tərəfdarı olduğunu bəyan edən Qətər BMT-nin bu istiqamətdə atdığı addımları dəstəkləyir və sülhsevər dövlətlər ilə ikitərəfli münasibətlər yaratmağa can atır.

1982-ci ilin 25 may tarixində Körfəz Əməkdaşlıq Şurasının yaradılmasında Qətər xüsusi rol oynamışdır. Ümumiyyətlə, Körfəz ərəb ölkələri ilə əlaqələrin inkişaf etdirilməsi Qətərin xarici siyasət kursunun prioritet istiqamətlərindəndir. Qətər Əmiri 1995-ci ildə ölkədə hakimiyyətə gəldikdən sonra KƏŞ-in bütün Sammitlərində iştirak edir. Eyni zamanda, Qətər digər ərəb dövlətləri ilə də əlaqələrini inkişaf etdirərək, mövqelərin yaxınlaşdırılmasına, habelə ərəb aləminin üzləşdiyi problemlərin həlli naminə həmrəyliyin daha da gücləndirilməsinə çağırır.

Ərəb aləminin əsas problemlərindən biri sayılan Fələstin probleminə münasibətdə Qətər İsrailin fələstinlilərə qarşı həyata keçirdiyi həmlələrin bütün region üçün təhlükə törətdiyini və sülh prosesi çərçivəsində əldə olunmuş nailiyyətlərin və Yol Xəritəsi planının uğursuzluğa düçar olmasına yönəldiyini hesab edir. Qətər Fələstin xalqının haqlı mübarizəsini və paytaxtı Qüds olmaqla öz müstəqil dövlətini yaratmaq haqqını dəstəklədiyini dəfələrlə bəyan edərək, regionda tam və ədalətli sülhün və əmin-amanlığın beynəlxalq qanunvericiliyin qərar və qətnamələrinə, habelə Yol Xəritəsi planına əsasən bərqərar olmasının vacibliyini və İsrail ordusunun işğal olunmuş Suriya və Livan ərazilərindən qeyd-şərtsiz çıxarılmasının zərurətini vurğulamışdır.

Qətər Ərəb Dövlətləri Liqasının ərəb həmrəyliyinin bərpa olunması istiqamətində atdığı addımları birmənalı şəkildə dəstəkləyir.



5 oktyabr 2016-cı il

Qətər Dövləti müsəlman ölkələri ilə əlaqələrinin inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verir və İslam Ümmətinin üzləşdiyi problemlərin həlli istiqamətində müsəlman ölkələrinə müxtəlif növ yardımlar göstərir.

Qətər bir çox inkişaf etməkdə olan Asiya və Afrika dövlətlərinə maliyyə yardımları göstərir. Qətər terrorun qəbuledilməz olduğunu bəyan edərək, bu təhlükənin aradan qaldırılmasında beynəlxalq ictimaiyyətin səylərinin gücləndirilməsinə çağırır. Qətər Dövləti 2006-2007-ci illər ərzində BMT TŞ-nin qeyri-daimi üzvü olmuşdur.

Ölkənin Prioritetləri Körfəz regionunun üzləşdiyi problemlər və təhlükələrin aradan qaldırılması, Körfəz Əməkdaşlıq Şurasının gücləndirilməsi, Körfəz ərəb ölkələri ilə əlaqələrin inkişaf etdirilməsi, İsrail-Fələstin münaqişəsinin həllində fəal iştirak etməkdir.

Qətər Dövlətinin ərəb və islam dünyası ölkələri, ABŞ, Böyük Britaniya, Fransa ilə əlaqələri var.

**Qətər Beynəlxalq təşkilatlardan** Qoşulmama Hərəkatı, BVF (Beynəlxalq Valyuta Fondu), ƏDL, İƏT, OPEK, ÜTT və sairə təşkilatların üzvüdür.

**Qətərin iqtisadiyyatı**

Ölkə iqtisadiyyatının əsasını qaz sənayesi, həmçinin neft istehsalı və emalı təşkil edir. Neftdən və qazdan gələn gəlir dövlət büdcəsinə mədaxilin 56%-ni təşkil edir. Ölkənin neft ehtiyatları 25 mlrd. barrel təşkil edir. 1981-ci ilin axırından Qətər Dövlət Neft Şirkəti ölkədə neft istehsalı və neft emalına tam nəzarət edir. Neft istehsalı gündəlik 1.532 milyon barrel təşkil edir. Neftdən əldə edilən gəlirə görə, Qətər dünyada Səudiyyə Ərəbistanı Krallığı, Birləşmiş Ərəb Əmirlikləri və Küveytdən sonra dördüncü yerdədir.

Qətər Dövləti qaz ehtiyatına görə dünyada üçüncü yeri tutur. Ümumi qaz ehtiyatı 24.53 trilyon m$^3$ miqdarda ölçülür və dünya qaz ehtiyatının 5 faizini təşkil edir.

Qətər ildə 160 milyard m$^3$ təbii qaz istehsal edir. Ölkədə metallurgiya kombinatı ildə 330 min ton sement istehsal edən sement zavodu, gübrə istehsalı zavodu, etilen və polietilen istehsalı müəssisələri vardır.

Ölkədə bir sıra yüngül və yeyinti sənayesi müəssisələri və dəniz suyunun içməli su halına gətirilməsi üzrə iri komplekslər inşa edilmişdir.

Ölkənin coğrafi-iqlim şəraitinə görə burada kənd təsərrüfatı zəif inkişaf etsə də, heyvandarlıq, quşçuluq, balıqçılıq sənayesi, meyvə və tərəvəz əkinçiliyi mövcuddur. Quşçuluq, qoyunçuluq fermaları, balıqçılıq təsərrüfatları və mirvari mədənləri fəaliyyət göstərir. Daxili istehsal ölkədə ərzaq məhsullarına olan tələbatın yalnız bir hissəsini ödəyir.

Ölkədə infrastruktur sahələri gündən-günə inkişaf edir: avtomobil yollarının uzunluğu 1210 km-ə yaxındır. Əsas dəniz limanları Doha və Um Səiddir. Beynəlxalq hava limanı Dohada yerləşir.

**2015-ci ildə** ÜDM (cari qiymətlərlə) 185,4 mlrd. ABŞ dolları **təşkil etmişdir.**

ÜDM (PPP-alıcılıq qabiliyyətinin pariteti): 319,8 mlrd. ABŞ dolları

**İnkişaf tempi** : 3,3% (2015)

**Büdcənin 2015-ci il üçün** gəlirləri - 57,45 mlrd. ABŞ dolları, xərcləri - 56,44 mlrd. ABŞ dollarıdır. **Xarici borc**: 141,6 mlrd. ABŞ dolları

**Ölkədə ixrac malları əsasən maye qaz, neft məhsulları, gübrə, polad hesab olunur. 2015-ci ildə ölkənin ixracı** 77,7 mlrd. ABŞ dolları təşkil etmişdir. Ölkənin 2015-ci ildə əsas **ixrac partnyorları** Yaponiya – 25,4%, Hindistan – 14,6%, Çin – 8,4%, BƏƏ - 6,8%, Sinqapur – 5,6%, Böyük Britaniya – 5,5%, Tailand – 4,2% olmuşdur.

**Ölkədə İdxal malları əsasən** ərzaq, kimyəvi maddələr, maşın və nəqliyyat avadanlıqlarından ibarətdir. **2015-ci ildə ölkənin idxalı** 28,5 mlrd. ABŞ dolları təşkil etmişdir.

**Ölkənin 2015-ci ildə əsas idxal partnyorları** Çin – 11,9%, ABŞ – 11,3%, BƏƏ – 9%, Almaniya – 7,7%, Yaponiya -6,7%, Böyük Britaniya – 5,9%, İtaliya – 4,6%, Səudiyyə Ərəbistanı – 4,4% olmuşdur.

**Azərbaycana Qətərdən qeyri-elektrik kürələrin hissələri, qoruyucu baş geyimləri, daxili yanma mühərrikləri üçün hava filtrləri və s. məhsullar idxal olunur.**

**Azərbaycandan Qətərə meyvə və tərəvəz şirələri, reaktiv mühərriklər üçün kerosin yanacağı və digər məqsədlər üçün qazoyllar, sadə sellüloza efirləri, optik daşıyıcılar və s. ixrac olunur.**

2015-ci ilin məlumatına görə, **ölkədə inflyasiya tempi** 1,7% olmuş, **işçi qüvvəsi** 1.644 milyon insan, **işsizlik göstəricisi** 0,4% təşkil etmişdir.

**Ölkədə** neft sənayesi, qaz sənayesi, neft-kimya məhsulları və gübrə istehsalı, polad, sement, ticarət gəmilərinin təmiri sahələri inkişaf etmişdir. Kənd təsərrüfatı məhsulları: meyvə, tərəvəz, toyuq, ət, balıq, gündəlik tələbat malları yetişdirilir. ÜDM-in sektorlara görə bölgüsü **(2015):** kənd təsərrüfatı - 0,1%, sənaye - 55,7%, xidmətlər - 44,1%.

**2016-cı il üçün ölkənin neft ehtiyatları** 25 milyard barrel olmuş, **neft istehsalı 2015-ci ildə** gündə 1.532 milyon barrel təşkil etmişdir. 2016-cı il yanvarın 1-nə olan məlumata görə, ölkənin **təbii qaz ehtiyatları** 24.53 trilyon kub.m., 2014-cü ildə **təbii qaz istehsalı** 160 milyard kub.m. olmuşdur.

**Qətər İnvestisiya Qurumu**

Qətər Dövləti sərmayə yatırımlarını əsasən Qətər İnvestisiya Qurumu vasitəsilə həyata keçirir. Qurumun direktorlar şurasının sədri Şeyx Abdullah bin Həməd bin Xəlifə Əl-Təni, sədr müavini isə Şeyx Əhməd bin Casim bin Məhəmməd Əl-Tənidir.

Qətər İnvestisiya Qurumunun büdcəsi 2014-cü ilə kimi dünyada neft qiymətlərinin və istehsalının pik həddə çatdığı dövrdə formalaşmış və 250 milyard ABŞ dolları təşkil edir. Qurumun əsas sərmayə qanadı olan "Qatar Holding" həyata keçirdiyi ən son maliyyə əməliyyatı nəticəsində Kanadanın "Group Field" şirkəti ilə birlikdə 2015-ci ilin aprel ayında 3.6 mlrd. ABŞ dolları müqabilində Kanar adalarının "Canary Wharf Group"u əldə etmişdir.

2015-ci ilin noyabr ayında Qətər İnvestisiya Qurumu 2.5 mlrd. ABŞ dolları həcmində sərmayələrini satışa çıxarmışdır. Belə ki, qurum fransız tikinti şirkəti "Vinci"də 430 mlrd. ABŞ dolları həcmində payını, eyni zamanda, alman tikinti şirkəti "Hochtief"də 500 mlrd. ABŞ dolları məbləğində payını satışa çıxarmışdır. Eyni zamanda, 2015-ci ilin noyabr ayında "Royal Dutch Shell" və "Bichi" şirkətlərinin birləşməsi nəticəsində bu şirkətlərdəki 1.5 mlrd. ABŞ dolları məbləğində payını satmışdır.

2015-ci ilin sentyabr ayında Qətər İnvestisiya Qurumu Nyu-York şəhərində öz ofisini açmış və ABŞ iqtisadiyyatına yatırımlar etmək niyyətini elan edərək, əmlak fonduna 150 mlrd. ABŞ dolları həcmində sərmayə yatırmışdır.

Qətər Dövləti, həmçinin dövlət mülkiyyətində olan digər şirkətlər (Qətər İdman Sərmayə, Qətər Neft Şirkəti, Qətər Hava Yolları) vasitəsilə xaricə sərmayələr yatırır.

**Azərbaycan-Qətər münasibətləri**

Qətər Dövləti ilə Azərbaycan Respublikası arasında diplomatik əlaqələr **14.09.1994-cü il** tarixində yaradılmışdır.

Qətər Dövləti beynəlxalq təşkilatlar (BMT, İƏT və s.) çərçivəsində Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü ilə bağlı qətnamələrin qəbul edilməsində Azərbaycanın mövqeyini daim dəstəkləmişdir.

**2000-ci ilin 12-14 noyabr** tarixlərində Qətərın paytaxtı Dohada keçirilmiş İslam Konfransı Təşkilatının Dövlət və Hökumət Başçılarının 9-cu Zirvə Toplantısında Azərbaycan Respublikasının sabiq Xarici İşlər Naziri V.Quliyev iştirak etmişdir.

Azərbaycan Respublikası Prezidentinin **28 sentyabr 2002-ci il** tarixli Fərmanına əsasən, Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanındakı Səfiri E.Araslı Qətər Dövlətində Fövqəladə və Səlahiyyətli Səfir təyin edilmişdir.

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2004-cü ilin 30 noyabr-1 dekabr tarixlərində Qətər Dövlətinin Əmiri Şeyx Həməd bin Xəlifə Əl-Təninin dəvəti ilə Qətər Dövlətində rəsmi səfərdə olmuşdur. Sonrakı illərdə də Qətər Dövləti ilə Azərbaycan Respublikası arasında münasibətlər yüksələn xətt üzrə inkişaf etmiş, 2007-ci ildə Qətərin Əmiri Şeyx Həməd bin Xəlifə Əl-Təni Azərbaycana rəsmi səfər etmişdir.**

Avqustun 28-də "Şəfəq" iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından Qətər Dövlətinin Əmiri Şeyx Həməd bin Xəlifə Əl-Təni və xanımı Şeyxa Moza bint Nasir Əl-Misnədin şərəfinə rəsmi qəbul təşkil edilmişdir. Səfər zamanı iki ölkə arasında 5 sənəd imzalanmışdır.

**2008-ci ilin 1-4 sentyabr tarixlərində** Bakıda Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının (QANA) İcraiyyə Komitəsinin AzərTAc-ın ev sahibliyi ilə keçirilən "Qloballaşan dünyada informasiya hamı üçün" mövzusunda 30-cu iclasında Qətərin Xəbər Agentliyinin nümayəndə heyəti iştirak etmişdir.

**7-8 mart 2016-cı il tarixlərində Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Əl-Təni Azərbaycana rəsmi səfər etmişdir.**

Səfər zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Əl-Təninin geniş tərkibdə və təkbətək görüşü keçirilmişdir.

Eyni zamanda, Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə ölkəmizdə rəsmi səfərdə olan Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Əl-Təni ilə görüşmüşdür. Səfər zamanı iki ölkə arasında 8 sənəd imzalanmışdır.

**5 oktyabr 2016-cı ildə** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qətər Dövlətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Yusif bin Həsən Yusif Əl-Sainin etimadnaməsini qəbul etmişdir.



# СОВРЕМЕННОЕ ОБРАЗОВАНИЕ: ПРОБЛЕМЫ И МНЕНИЯ

*«Детей надо учить тому, что пригодится им, когда они вырастут».*

*Аристипп - древнегреческий философ*

Когда речь заходит об образовании – у каждого человека есть свое – особое мнение о школе, университетском образовании, воспитании и обучении молодежи и т.п. Нам также хотелось бы поразмышлять на эту тему и остановиться на ряде существующих проблем.

Современная система образования в стране, по мнению многих отечественных экспертов, в значительной мере повторяет формат большинства западных школ, главный постулат которой звучит так: «хочешь учиться — учись». То есть копируется принятая на Западе, так называемая «самопоз-навательная» образовательная система. Традиции советской школы в значительной мере вытеснены из нынешнего образа жизни и заменены стандартами западной развлекательной культуры. Касается это, прежде всего, забвения морального кодекса молодежи, имевшего место в СССР. Особенно наглядно это проявляется сейчас — в эпоху интернета: социальные сети, компьютерные игры, беспрерывные селфи-сессии. Современная учащаяся молодежь никогда не променяет социальные сети, компьютерные игры на учебники. При всех технических плюсах, отсутствие само цензуры во всемирной паутине приводит к деградации личности. По общему мнению педагогов, сегодня молодые люди страдают интернет-зависимостью.

Сегодня широко распространяется среди молодежи вера в иррациональное, магическое, в волшебство. С экрана телевизора или компьютера идет реклама "чудес", мистика, оккультизм и т.п. В кино молодежь получает воспитание на фильмах о Гарри Поттере. В таких условиях уменьшение часов по общественным дисциплинам работает на триумфальное шествие мракобесия, дезориентируя людей и облегчая манипуляцию: человеку, верящему в чудеса, легко впарить любую пропаганду, не имеющую рацио-нальной аргументации. Создаётся впечатление, что все эти манипуляции должны подготовить людей к принятию нового типа власти — магической, основанной на претензии на волшебство, на чудо.

Имеет место мнение, что в школах, а затем и в высших учебных заве-дениях ученикам дается слишком большой объём знаний, 80%-90% из кото-рых не нужны в жизни. Вместе с тем, требования по сокращению нагрузки на учащихся приводят к сокращению предметов. В итоге убирают предметы, которые способствуют развитию кругозора, а именно общественные науки: историю, экономику, философию и др. При этом мотивируют это тем, что на Западе эти предметы не преподают, а уровень жизни и технологическое развитие там выше, чем у нас. Здесь уместно привести слова основателя компании Apple Inc, рыночная стоимость которой достигает 770 миллиардов долларов и, которая стоит больше, чем Exxon и Berkshire Hathaway вместе взятые, Стива Джобса. Во время презентации своего iPad в 2010 году он заявил следующее: «В ДНК у Apple заложена идея о том, что одних только технологий недостаточно. Нужна технология, объединенная с общеобразо-вательными предметами, объединенная с гуманитарными науками, и она дает такие результаты, которые заставляют наши сердца петь».

Устранение общественных дисциплин в высших учебных заведениях технического профиля или резкое сокращения их преподавания приводит к утрате исторического видения, исторической памяти, что не способствует формированию патриотизма и гражданственности. Знания об обществе и месте человека в обществе позволяют грамотно сформулировать жизненные цели и наметить наиболее рациональный, оптимальный путь их достижения. На наш взгляд недостатком учебных заведений является не величина объема знаний, а то, что учащимся не дают действительно важных и необ-ходимых в жизни знаний. То есть практически не подготавливают к взрослой жизни: не учат быть успешными, не учат тому, как эффективнее обращаться с деньгами, почти не учат психологии и деловому общению. Зачастую мы видим, что бывшие двоечники, прогульщики и те, кто не имеют высшего образования становятся во взрослой жизни успешными людьми, а бывшие отличники и те, кто имеют научную степень часто живут в бедности. На наш взгляд, причина этого кроется в том, что двоечники и прогульщики уделяют мало внимания дающимся в школе ненужным знаниям и уделяют больше внимания другим более важным и ценным навыкам в жизни - это позволяет им лучше ориентироваться в жизненных ситуациях и делает их успешнее. Отличники и те, кто уделял много внимания процессу обучения зачастую слабо разбираются в жизненных ситуациях и бытовых вещах, поскольку они очень далеки от реального мира - они, если можно так выразится, не умеют жить, поэтому зачастую они не могут устроиться в жизни. То есть, на наш взгляд, в учебных заведениях необходимо преподавать больше знаний и навыков, которые реально полезны и нужны в жизни.

По мнению Рене Декарта, французского философа, математика, физика и физиолога, философия является прародительницей других наук. Свое мнение он подтверждает тем, что философия зародилась еще в те времена, когда человек начал задумываться над своим бытием и впервые заглянул внутрь себя. И любовь к мысли у него, умение размышлять приводят к созданию все новых и новых наук. Любая наука основывается на теоретических знаниях и наблюдениях и уж потом эти знания перерастают в эмпирические.

Одна из этих дисциплин – экономика, в том числе политэкономия. В мировой экономической науке сама политэкономическая школа, потеряв ведущую роль, не исчезла и продолжает достаточно плодотворно разви-ваться. Она институционализирована в академическом сообществе, имеет свои международные организации и периодические издания. Что же касается постсоциалистического мира, то одним из результатов краха социализма стала предпринятая попытка «закрыть» политическую экономию в марксист-ской версии как науку, относя ее к области сугубо идеологии. В итоге произошло почти полное сворачивание преподавания соответствующих учебных курсов в университетах и институтах, резко сократилась исследо-вательская работа в этом направлении, кафедры сменили свое название и даже можно говорить о вытеснении самого понятия «политическая эконо-мия» из научного и учебного арсенала.

Развал социалистической системы хозяйства предопределил неизбеж-ность сворачивания политической экономии социализма в силу уже исчезновения непосредственного объекта исследования. Такому ходу событий не в малой степени поспособствовали существенные недостатки, сложившиеся в советской научно-образовательной сфере. Утверждение монопольного положения теории марксизма в области экономического знания, искус-ственное ее исключение из общемирового научного дискурса, давление власти, чрезмерная идеологизация, догматизм и отрыв от реальных хозяй-ственных процессов и т.п. — все это не могло не привести к застою и кризису советской экономической школы.

Современная политическая экономия может восстановить свой автори-тет, если ее последователи смогут выработать и консолидировать свои методологические позиции, сохраняя все неизбежное многообразия взглядов и оценок по самым разным вопросам теории и практики. Современный политэкономический подход связан с необходимостью его приоритетной ориентации на решение актуальных задач экономического развития. Не в отрыве от реальной экономики, а опираясь на нее, дискутировать о научных проблемах. Это значит рассматривать современную политэкономию как фундаментальную часть экономической науки, но непосредственно обращен-ную к реальной общественно-хозяйственной жизни. Сегодня требуется политическая экономия XXI века, опирающаяся на исторические традиции, одновременно воспринимающая все то полезное, что накоплено в экономи-ческой науке, и открытая для



диалога, а потому и способная дать ответ на современные вызовы.

Присутствие в мировой хозяйственной практике реального много-образия национальных хозяйственных моделей подтверждает объективную потребность в разработке теории национально-особенного в экономическом развитии. И чем многообразнее и масштабнее национальная специфика, тем выше потребность в создании своей экономической концепции, которая может выступать в двух возможных вариантах: в виде приспособления всеобщих форм хозяйствования или через обоснование своей хозяйственной системы, подкрепленной соответствующей школой научной мысли. Она может взаимодействовать и использовать наработки других школ, в том числе претендующих на раскрытие всеобщего и универсального в экономике, но главным ее предназначением становится учет национально-особенного в экономическом развитии.

С практической точки зрения изучение особенного в экономике акцен-тирует внимание на множественность путей развития экономики и тем самым обязывает реформаторов учитывать наличие вариантности и альтернативности в общественно-экономической сфере, прежде всего, когда речь идет о выборе путей трансформации сложившейся хозяйственной системы. Далее, через особенное обнаруживается не просто своеобразие той или иной страны, но и на этой основе выявляются ее конкурентные преиму-щества в экономике. Надо учитывать, что такие преимущества возникают как развитие и углубление самобытных черт, свойственных данной экономике. Простое же копирование чужих образцов хозяйствования уже по определе-нию не в состоянии обеспечить экономические преимущества перед странами-лидерами. Отсюда и главная практическая задача экономической теории и стратегии — не консервация особенного, охраняя его как нечто неприкасаемое, а поиск способов превращения особенного в экономике в свои конкурентные преимущества. Не случайно «экономические чуда» в мировой истории всегда приобретают свою национально-самобытную форму, выступая в виде «немецкого или китайского» его вариантов. Наконец, нельзя не видеть важной роли теории особенного в укреплении национального самосознания и патриотизма, а в экономической области — в воспитании способности к отстаиванию национальных экономических интересов.

Для оценки и межстранового сравнения качества систем образования специалистами разработан ряд рейтингов. Группа Пирсон с 2012 года (в два года раз) публикует свой рейтинг. В соответствии с очередным обследо-ванием систем образования 40 стран, страны Восточной Азии находятся во главе рейтинга. Южная Корея находится на вершине рейтинга, далее следуют Япония (2), Сингапур (3) и Гонконг (4). Пятое место занимает Финляндия, а Германия, Россия и США попали во вторую десятку рейтинга. В обсле-довании отмечается интересный факт, что в Южной Корее дети часто ходят в школу семь дней в неделю, без выходных?

Азербайджан не вошел в данное рейтинговое обследование. Вместе с тем, в Азербайджане последовательно осуществляется работа в направлении совершенствования системы образования. Развивается из года в год инфра-структура образования и его материально-техническая база, растет благосостояние учителей, то есть происходит качественный рост системы образования.

Всем нам известно высказывание Президента Азербайджана Ильхама Алиева о превращении «черного золота» в «человеческий капитал». Согласно стратегии преобразования нефтяного капитала в человеческий капитал Азербайджан приступил к финансированию получения высшего образования молодежью в ведущих мировых высших учебных заведениях, и с этой целью была принята отдельная государственная программа. Основными целями данной программы является: увеличение ежегодного количества азербайджанских студентов, обучающихся за государственный счет за рубежом, Программа финансируется на средства Государственного Нефтяного Фонда. В рамках этой программы азербайджанская молодежь получает образование в Австралии, Южной Корее, Китае, Малайзии, Сингапуре, США, Германии, Франции, Голландии, Норвегии, Швеции, Финляндии, Италии, Бельгии и Великобритании.

Следует отметить важность воспитания молодежи на основе национальных, духовно-нравственных устоев. Об этом говорил Президент страны Ильхам Алиев на открытии нового здания средней школы номер 311 в Баку (15 сентября 2016 года). «Воспитание молодежи как в семьях, так и в школах в национальном духе имеет особое значение. Особенно сегодня, когда в мире происходят различные процессы, под предлогом глобализации фактически проводится политика унификации, посредством средств массовой информации совершаются различные провокации».

Сегодня, когда геополитические противостояния приобретают всё более выраженный информационный характер, когда политическая дестабилизация достигается с помощью сетевых войн - "твиттерных революций" (Тунис, Египет) то есть информационно-культурного воздействия на сознание и под-сознание групп и индивидов, а результат этого воздействия во многом зависит от уровня образования объекта воздействия (чем выше уровень образования, тем труднее манипулировать человеком), состояние образо-вания становится важнейшим фактором геополитической борьбы.

Весьма полезно было бы обратиться к одному выражению американ-ского политолога и государственного деятеля Збигнева Бжезинского. В свое время он придумал и ввел в обиход слово титтитейнмент. Титтитейнмент – сочетание развлечений и шоу, получение удовольствия, погружения в приятную виртуальную реальность, которая призвана скрасить серые будни общества и отвлечь от проблем реальности, а также предназначена для манипуляции сознанием вымирающего населения.

В 1997 году в США при Гарвардском университете был создан Беркмановский центр изучения Интернета и общества (Berkman Center for Internet and Society). Сотрудники Центра изучали воздействие Интернета и особенно блогосферы на общество и государство конкретной страны. Главная цель исследований - блогосфера должна заменить традиционные системы социальных связей и передачи информации (семья, государство) на сетевые и таким образом может трансформировать любой режим без революции, особенно если блогосфера развита достаточно широко и включает в себя широкие слои молодёжи, используя систему образования как сеть. Именно образование, из которого убраны "лишние знания", которое способствует дерационализации, деисторизации и примитивизации сознания.

"Тихие американцы" весьма преуспели в арабских странах — в Тунисе и Египте мобилизовав блоггеров, ориентирующихся на "Братьев-мусуль-ман". Беркмановцы прямо говорят о том, что блоггеры и цифровые сообщества должны стать коллективными руководствами флэшмобов и смартмобов. Если учесть, что многие события последних лет (в Киргизии, Египте и др.) стартовали как флэшмобы, то становится ясно, что речь идёт об организации подрывной деятельности посредством создаваемых в блогосфере "пятых колонн", попытку подавления которых западные СМИ истерически объявляют тиранией и пр. Беркмановский центр выставляет себя борцом за права человека (в Интернете), выступает с либеральных позиций.

Для успешного использования блогосферу той или иной страны надо подготовить, прежде всего — упростить сознание, примитивизировать, а по возможности — ликвидировать убеждения, максимально стереть историческую память. Homoretis (сетевой человек) — должен иметь, как зафиксировано в инструкции образца аж 1994 года Международного республиканского института (International Republican Institute) мировоз-зрение, излагаемое всего одной фразой, социальную позицию — излагаемую тремя словами, которые должны действовать ударно, как хэштэги, и выскакивать в сознании автоматически при появлении в сети определённого звукового или визуального сигнала, определённой фразы типа "грабь награбленное", "долой диктатуру" и т.п. Иными словами, мы имеем дело с самым настоящим зомбированием. Дерационализированное, избавленное от "излишних знаний", деисторизированное сознание кардинально облегчает решение задач сетевых войн. В этом плане можно сказать, что недостаточный уровень образования, сокращение его гуманитарной направленности ослабляет национальную безопасность страны.

Понятно, что для успеха сетевой войны превращение образования в сеть, "населённую" легко манипулируемыми "сетевыми человечиками" — это беспроигрышный ход в мировой борьбе за власть, ресурсы и информацию. Только сильное, государственно-патриотически (а не глобально-космопо-литически) ориентированное образование может стать заслоном в сетевых войнах. Поэтому сегодня образование - это намного больше, чем образование, это будущее.

**Руфат Кулиев,**
**д.э.н., профессор, заведующий кафедрой Азербайджанского Технического Университета,**
**Депутат Милли Меджлиса Азербайджанской Республики**

# Mərkəzi Bankda valyuta ehtiyatları 350 milyondan çox artıb




Mərkəzi Bank rəsmi valyuta ehtiyatlarına dair məlumatı açıqlayıb.
2016-cı ilin sonunda 3 milyard 974.4 milyon dollar olan valyuta ehtiyatları 31 yanvar 2017-ci il tarixinə 4 milyard 327.2 milyon dollara yüksəlib. Beləliklə, yanvar ayında valyuta ehtiyatları 352,8 milyon dollar və ya 9% artıb.
Xatırladaq ki, Dövlət Neft Fondundan Mərkəzi Banka valyuta ehtiyatları köçürüləcəyi açıqlanmışdı.

# Beynəlxalq Bankın sədri: "Bu il mənfəət gözləyirik"

**BANKA 3 MİLYARD DOLLAR TRANŞ AYIRILACAQ**

Xalid Əhədov bildirib ki, qalan problemli aktivlərin "Aqrarkredit" QSC-yə təhvil verilməsi müqabilində Banka açılacaq növbəti tranşın məbləğinin müəyyənləşdirilməsi istiqamətində iş gedir:
"İlkin hesablamalara görə, bu tranşın məbləği təxminən 3 milyard USD olacaq. Bu, Bankda 500 milyon manat məbləğində ehtiyatın kapitala qayıdışını təmin edəcək". Onun sözlərinə görə, bu əməliyyatın 2017-ci ilin birinci rübündə həyata keçirilməsi gözlənilir.
İdarə Heyətinin sədri hazırda Bankda aparılan maliyyə-təşkilati sağlamlaşdırma tədbirlərindən də danışıb. Qeyd edib ki, bu tədbirlər nəticəsində Azərbaycan Beynəlxalq Bankının 2017-ci ili kiçik də olsa, mənfəətlə başa vurması proqnozlaşdırılır. X.Əhədov Bankın xarici öhdəliklərin yerinə yetirilməsi ilə bağlı hər hansı probleminin olmayacağını bildirib.

**«YENİ İNVESTORLARIN İPO VASİTƏSİLƏ CƏLB EDİLMƏSİ MÜMKÜNDÜR»**

Azərbaycan Beynəlxalq Bankının özəlləşdirilməsinə hazırlıq barədə suallara da cavab verən Xalid Əhədov bunun təşkilati-sağlamlaşdırma tədbirlərinə paralel olaraq mərhələ-mərhələ yerinə yetiriləcəyini qeyd edib. Eyni zamanda, özəlləşdirmə prosesində iştirak edə biləcək mümkün investorlar haqqında mövqeyini bölüşüb: "Azərbaycanın sosial-iqtisadi inkişafında maraqlı olan Beynəlxalq Maliyyə Korporasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı kimi qurumların prosesə cəlb edilməsi çox əhəmiyyətlidir. Bundan başqa, investor qismində Azərbaycan Beynəlxalq Bankına yeni texnologiyalar və yeni nəfəs gətirə biləcək özəl xarici maliyyə institutlarına da üstünlük verilə bilər. Özəlləşdirmə prosesinə yerli investorların da yerli İPO vasitəsilə cəlb olunması mümkündür".

# Bank filialı və şöbələri artıb




31.12.2016-cı il tarixində banklar 569 filiala, 131 şöbəyə malik olub.
Bu barədə Maliyyə Bazarlarına Nəzarət Palatasından bildirilib.
30.11.2016-cı il tarixində bankların filiallarının sayı 568, şöbələrinin sayı isə 129 idi.

**Bank sektorunun 2016-cı il üzrə icmal göstəriciləri açıqlanıb**

Azərbaycanda fəaliyyət göstərən 32 bankın 31 dekabr 2016-cı il tarixinə cəmi aktivləri 31,439.5 milyon manat, cəmi öhdəlikləri 29,530.7 milyon manat təşkil etmişdir. Sektorun balans kapitalı 1,908.8 milyon manatdır. Əhalinin əmanətləri 7432.1 milyon manat həcmindədir. Bu barədə Maliyyə Bazarlarına Nəzarət Palatasından bildirilib.
Bu banklardan ikisi dövlət bankıdır. Xarici kapitallı bankların sayı 15, o cümlədən xarici bankların yerli filiallarının sayı 2-dir. Bankların filiallarının sayı 569, söbələrinin sayı 131, ATM-lərin sayı 2461-dir. Bütövlükdə, bank sektorunun işçi heyəti 16947 nəfər təşkil edir.
Maliyyə bazarlarının digər iştirakçıları olan bank olmayan kredit təşkilatlarının (BOKT) sayı 144, o cümlədən kredit ittifaqlarının sayı 97-dir. BOKT-nin işçi heyəti 2 657 nəfər təşkil edir.
2016-cı ilin 31 dekabr tarixinə olan bank sektorunun əsas göstəriciləri bank sektorunun icmal göstəricilərində öz əksini tapmışdır.

# Rabitəbankdan 119 milyon manatlıq sürətli köçürmə

Rabitəbank

Rabitəbank ASC Azərbaycanın bank sistemində mütərəqqi inkişafı ilə seçilən bankların sırasındadır.
Bankın yaydığı məlumata görə, Rabitabank ASC-nin aktivləri 31.12.16 tarixinə ilin əvvəli ilə müqayisədə 23% artaraq 552 mln. 288 min manat təşkil etmişdir. Müştərilərin müddətli əmanətlərinin həcmi isə 8% artaraq 241 mln. 850 min manat, cari hesabları 81% artaraq 178 mln. 789 min manat təşkil etmişdir. 31.12.16-cı ilə Bankın məcmu kapitalı 60 mln. 932 min manat təşkil etmişdir.
Bankın gəlirlik göstəricilərinə gəldikdə isə, xalis faiz gəlirləri 12 mln. 134 min manat, xalis qeyri-faiz gəlirləri isə 12 mln. 576 min həcmində olub.
Bank 2016-cı il ərzində plastik kart infrastrukturunu möhkəmləndirmiş, bununla aktiv plastik kart hesab istifadəçilərinin sayını 37 min 919 ədədə, ATM şəbəkəsini isə 56 ədədə çatdırmışdır.

# Daxili bazarın qorunması: dünya təcrübəsi

**(əvvəli 5-ci sayımızda)**

Müdafiə tədbirləri kimi AB-də dövlət subsidiyalaşdırmasından geniş istifadə olunur. Özü də söhbət təkcə milli istehsalın dəstəklənməsindən deyil, həm də ixracın stimullaşdırılmasından gedir. Xüsusən, AB ölkələrində üçüncü ölkələrin mənafeyinə toxunan tədbirlər kimi gəmiqayırma və gəmi təmiri sahələrinə geniş yardım göstərilir. Belə yardımların növləri müxtəlifdir. Onlara milli gəmiqayırma istehsalının yenidən qurulması, dövriyyə kapitalının artırılmasına yönəldilən birbaşa və dolayı subsidiyalar və investisiya layihələri, daxili kreditləşdirmə, ixrac kreditlərinin subsidiyalaşdırılması və dövlət tərsanələrinin mövcudluğu daxildir.
Hal-hazırda AB üçüncü ölkələrin təsiri ilə milli istehsalın bu cür qorunması praktikasından imtina etmək istədiyini bildirsə də, hələlik müxtəlif bəhanələrlə onları saxlamaq istəyir. Məsələn, digər ölkələrdə (Cənubi Koreya və s.) «ədalətsiz ticarət»in ləğv edilməməsi bəhanə olaraq göstərilir. Bildirilir ki, bundan sonra gəmiqayırma və gəmi təmirinin subsidiyalaşdırılması dayandırılacaqdır. Bununla yanaşı olaraq, ETTKİ-yə çəkiləcək xərclər bəhanə gətirilərək müvəqqəti yardım mexanizmləri hazırlanır. Amerikalıların heç sevmədikləri hal Airbus konsorsiumuna dövlət tərəfindən yardım edilməsidir. Fəaliyyətinin başlanğıc dövründən etibarən o dövlət tərəfindən birbaşa subsidiyalar formasında yardım alır. Bunlara borcların silinməsi və qaytarılmasının uzadılması, məhsulların realizasiyası sahəsində yardım, hətta potensial alıcılara siyasi təzyiq göstərilməsi də aiddir. ABŞ tərəfindən edilən etirazlara baxmayaraq, yardım hal-hazırda da davam edir. Belə ki, artıq dövlət A 380 avialaynerinin hazırlanmasına vəsait ayırıb və təchizatçılara maliyyə və digər yardımların göstərilməsi nəzərdə tutulur.
«Öz» firmalarını müdafiə edərək xarici təchizatçılara zərbə endirən AB çərçivəsində dövlət sifarişləri və alışlarını yaddan çıxarmaq olmaz. Su təchizatı, nəqliyyat, energetika və telekomunikasiya xidmətləri sahəsində dövlət alışları üçüncü ölkələrin, xüsusən ABŞ-ın etirazına səbəb olur. AB bu sahədə ticarətin liberallaşdırılması və sağlam rəqabətin həvəsləndirilməsi tədbirlərini həyata keçirir. 1990-cı ildə 1993-cü ilin əvvəlindən qüvvəyə minən direktivə əsasən, bu sahələr üçün dövləti avadanlıqlarla təchiz edənlər arasında açıq konkurs və tenderlərin keçirilməsi nəzərdə tutulur, lakin avadanlıqların istehsalında istifadə olunan komponentlərin 50%-i AB daxilində istehsal olunmalıdır. Sonralar dövlət alışları və sifarişləri sahəsindəki qanunvericilik AB-dən və üçüncü ölkələrdən olan təchizatçılara bərabər hüquqların təmin edilməsi istiqamətində dəyişilmişdir. Nəticədə, təkcə telekommunikasiya avadanlıqları sahəsində dövlət alışları bazarı formal olaraq qapalı qalmışdır. Lakin buna baxmayaraq, bir çox ölkələrdə üstünlük yenə də öz firmalarına (xüsusi hallarda AB-nin digər ölkələrinə) verilir. Belə hallar əsasən Avstriya, Yunanıstan, İtaliya, Fransaya xarakterikdir. Üçüncü ölkələr bildirirlər ki, bu sahədə milli qanunvericilik səviyyəsində ümumiləşdirmələr AB ölkələri arasında çox ləng gedir və ölkələr arasında ciddi fərqlər mövcudur. Bir xarakterik misal: Almaniyada dövlət sifarişçilərinə təhsil və ya konsultativ xidmətlər göstərmək üzrə tender keçirilərkən təchizatçıya sayentoloqlarla əlaqəsinin olduğuna görə rədd cavabı verilə bilər. AB ölkələrində qanunvericilik səviyyəsində ümumiləşdirmələrin ləng aparılması onların daxili bazarlarını xarici müdaxilədən, xüsusən amerikalı rəqiblərdən səmərəli qorumağa kömək edir. Buna əyani misal əczaçılıq malları bazarını göstərmək olar. Bir çox üçüncü ölkələrin əczaçılıq şirkətləri kimi AB bazalarında da qiymətlərə, satışın həcminə və qaydalarına dövlət nəzarət etdiyindən Amerika firmaları həmin bazarlara daxil olmaqda çətinliklərlə qarşılaşırlar. Bu cür nəzarəti onlar patent hüquqlarına əməl etməmək, sağlam rəqabətə əməl etməmək, xəstələri qabaqcıl dərmanlara yaxın buraxmamaq kimi qiymətləndirirlər. Qiymətlərə nəzarətin nəticəsində eyni növ dərmanların qiyməti müxtəlif ölkələrdə bir-birindən kəskin surətdə fərqlənir. Bir qayda olaraq, bunun nəticəsində vasitəçilər varlanırlar. Onlar dərmanları ucuz olan yerdən alaraq onu baha olan yerdə satır və beləliklə, firmalara ağır zərbə endirirlər. Firmalar ETTKİ-yə çəkilən xərclərini örtə bilmirlər. Bundan əlavə, bir çox ölkələrdə tibbi sığorta sistemi mövcuddur ki, o da üçüncü ölkələrin rəqabətini zəiflədir. Məsələn, belə sığorta sistemi Avstriyada mövcuddur. Dərmanların da tibbi sığorta hesabına ödənilməsi sosial sığorta təşkilatının funksiyasıdır. Hər hansı bir dərmanın siyahıya salınması çox uzun (5 və daha çox il) çəkir. Aydın məsələdir ki, siyahıya daxil olmayan dərmanlara tələbat olmayacaq və belə olduqda onun qiyməti də baha olacaq. Belçikada da yeni dərmanların bəyənilməsi və qiymətlərinin müəyyənləşdirilməsi uzun çəkir. Belə ki, bu proses AB tərəfindən müəyyənləşdirilmiş norma olaraq 390 günü aşaraq, orta hesabla 1075 gün çəkir. Dərmanların qiymətlərinin dondurulması qaydası da mövcuddur ki, onlar da sığorta hesabına ödənilir. AB digər ölkələrdə xarici istehsalçıların klinika təcrübələrinin uzun çəkdiyini bildirir. Həmin dərmanların «unikal yeni dərmanlar» deyil, «terapevtik ekvivalent»lərə aid edilməsi onlara ucuz qiymət qoyulmasına gətirib çıxarır. Beləliklə, üçüncü ölkələrin istehsalçılarına qarşı diskriminasiya tədbirlərinin görülməsi nəticəsində AB ölkələri səmərəli surətdə daxili bazarlarını xarici rəqiblərdən qoruyurlar.



AB-də standartlar, testləşdirmə və sertifikatlaşdırma, markalanmaya və qablaşdırmaya nəzarət (həmçinin ticarət nişanları və etiketlərə) proteksionizmin geniş yayılmış növlərindəndir. Belə tədbirlər xüsusən yüksək texnoloji sahələrdə - elektronika, telekommunikasiya avadanlıqları, biotexnologiya sahələrində özünün effektiv təsirini göstərir. Lakin hərdən onlar ənənəvi şərab ticarətinə də təsir göstərirlər. AB ölkələri arasında standartlar, testlər və sertifikatlar sahəsində fərqlərin mövcudluğu əmtəələrin hərəkətinə maneəçilik törədir.
Standartlaşdırma prosesi AB ilə üçüncü ölkələr, xüsusən ABŞ-la ticarət əlaqələrində daha geniş rol oynayır. Ümumi olaraq AB ölkələri üçün vahid standartların işlənib hazırlanmasının ləngiməsi, dövlət tərəfindən tənzimlənən sahələrdə qanunvericilik səviyyəsində ümumiləşdirmələrin ləngiməsi, mövcud qanunvericiliyin AB ölkələri tərəfindən ardıcıl olmayaraq tətbiqi (izahın, şərhin müxtəlifliyi), malların bazara buraxılmasına qədər markalanma və ticarət nişanları barəsindəki anlaşılmaz tələblər, dizayn standartlarına həddən artıq diqqətin ayrılması amerikalılarda narahatlıq doğurur. AB daxilində bir-birlərinin milli laboratoriyalarında, həmçinin firmaları arasında keçirilmiş testləşdirmə və sertifikatlaşdırmanın nəticələrinin tanınması meyilləri mövcuddur. Bununla yanaşı, tənzimlənən sahələrdə istehsal olunan mallar yalnız Avropa ərazisində yerləşən orqanlar tərəfindən bəyənilə bilər. ABŞ-ın və digər üçüncü ölkələrin laboratoriyaları müqavilə əsasında məhsulların testləşdirilməsinin aparılması hüquqlarını əldə etmişlər. Lakin belə laboratoriyaların sayı azdır və onlar testləşdirmələrin nəticələrini Avropa laboratoriyalarına göndərirlər ki, bu da prosesin vaxtını uzadır və xərcləri artırmış olur. Hal-hazırda ABŞ və AB bir neçə sahədə (telekommunikasiya avadanlıqları, tibbi texnika, əczaçılıq, elektromaqnit məmulatları və s.) nəticələrin qarşılıqlı surətdə tanınması haqqında razılığa gəliblər. Bir çox digər xidmət sahələrində də (memarlıq, sığorta) nəticələrin qarşılıqlı surətdə tanınması üzrə danışıqlar gedir, lakin bir çox sahələr belə razılaşmalardan kənarda qalmışlar.
AB biotexnologiya əsasında istehsal olunmuş, emal olunmuş və saxlanılan mallara qarşı daxili bazarı qorumaq məqsədilə geniş surətdə proteksionist tədbirlərdən istifadə edir. Məsələn, ABŞ-da genetik dəyişdirilmiş kənd təsərüfatı məhsullarının istehsalı ABŞ-la AB arasında kəskin fikir ayrılığına gətirib çıxarmışdır. Belə ki, onların ixracı və satışına qoyulan qadağa, milli qanunvericilik və AB qanunvericiliyi arasındakı fərqlər, malın ticarət nişanında onun tərkibində nə qədər genetik dəyişdirilmiş məhsulların olduğunu göstərmək tələbi ABŞ mallarının AB bazarlarına daxil olmasını çətinləşdirir və AB-dəki rəqiblərə nisbətən onların mövqelərini zəiflədir.

**(davamı gələn sayımızda)**

**Mansur Mədətov,**
**iqtisad üzrə fəlsəfə doktoru**

# "CDB" 2016-cı ildən mənfəətlə çıxıb




"Caspian Development Bank (CDB)" ASC 2016-cı ili 8 milyon 597 min manat xalis mənfəət ilə başa vurub.
Bank 2015-ci ildə də təxminən bu məbləğdə - 8 milyon 426 min manat xalis mənfəət açıqlamışdı.

**QEYRİ-FAİZ GƏLİRLƏRİ FAİZ GƏLİRLƏRİNDƏN ÇOX OLUB**

2016-cı ildə "Caspian Development Bank"ın cəmi gəlirləri 22 milyon 262 min manat, o cümlədən faiz gəlirləri 8 milyon 916 mina manat, qeyri-faiz gəlirləri isə 13 milyon 346 min manat təşkil edib. Faiz və qeyri-faiz xərcləri çıxıldıqdan sonra 15 milyon 106 min manat əməliyyat mənfəti qalıb. Əməliyyat mənfəətinin 4 milyon 351 min manatı aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatın yaradılmasına ayrılıb. Nəticədə qalan 10 milyon 755 min manat mənfəətdən 2 milyon 157 min manat mənfəət vergisi ödənilib və Bank ili 8 milyon 597 min manat xalis mənfəət ilə başa vurub.
Qeyd edək ki, 2015-ci ildə "Caspian Development Bank" 41 milyon 798 min manat cəmi gəlir, o cümlədən 4 milyon 897 min manat faiz, 36 milyon 901 milyon manat qeyri-faiz gəliri əldə etmişdi. Bank 2015-də aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatın yaradılmasına 27 milyon 727 min manat ayırmışdı.

**AKTİVLƏRİ DƏYİŞMƏYİB**

31.12.2016-cı il tarixinə "Caspian Development Bank (CDB)"ın cəmi aktivləri 129 milyon 294 min manat təşkil etmişdir ki, bu da 2015-ci ilin sonu ilə müqayisədə, demək olar ki, eynidir. Bank 31.12.2015-ci il tarixində 129 milyon 60 min manat cəmi aktivlərə malik idi.
Ötən il müştərilərə verilən kreditlər cüzi azalaraq 109 milyon 294 min manatdan 101 milyon 57 min manata geriləyib.
2015-ci illə müqayisədə ötən il Bankın öhdəlikləri 9% azalaraq 31.12.2016-cı il tarixinə 63 milyon 765 min manat təşkil edib. Öhdəliklərin 39 milyon 244 min manatını depozitlər təşkil edib.

**KAPİTALI ARTIB**

Ötən il Bankın cəmi balans kapitalı 6 milyon 489 min manat artaraq 65 milyon 529 min manata yüksəlib.

# Azərbaycan yeni qlobal reallıqda: islahatlar və inkişaf



**Vahid NOVRUZOV,**
**Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, i.e.d., professor**

Ölkəmizdə həyata keçirilən cəsarətli iqtisadi islahatlar Azərbaycanın müasir şəraitdə yeni iqtisadi inkişaf modelinin formalaşmasına xidmət edir. Bu baxımdan **Prezident İlham Əliyevin 2016-cı il martın 16-da imzaladığı "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətlərinin təsdiqi və bundan irəli gələn məsələlər haqqında"** Sərəncam mühüm əhəmiyyət kəsb edir. Bu sərəncamla yaradılmış İşçi qrupu tərəfindən milli iqtisadiyyat və iqtisadiyyatın on bir əsas sektoru üzrə strateji yol xəritələrinin layihələri vaxtında hazırlanmış, müzakirəyə çıxarılmış və maraqlı tərəflərin rəy və təklifləri nəzərə alındıqdan sonra **Prezidentin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə həyata vəsiqə qazanmışdır.**

Dünyada son zamanlar baş verən siyasi, iqtisadi və sosial proseslər Azərbaycanda da yeni iqtisadi situasiya yaratmışdır. Obyektiv və subyektiv səbəblər üzündən ölkə iqtisadiyyatının bəzi sahələrində mürəkkəb vəziyyət yaranmış və yalnız Prezident İlham Əliyevin çevik, eyni zamanda, yaxın və uzaq gələcəyə hədəflənmiş iqtisadi strategiyası sayəsində həmin vəziyyət böhran həddinə çatmamışdır. Ölkədən kapital axınının cilovlanması, mal və xidmət istehsalçılarına yerli və xarici bazarlara çıxışın təmin olunması, bütün növ investisiyaların cəlbinə münbit şərait yaradılması və iqtisadi inkişafa xidmət edən prioritet layihələrin reallaşdırılması, müasir tələblərə cavab verən kadrların hazırlanması, idarəetmənin və planlaşdırmanın təkmilləşdirilməsi ölkə rəhbərinin iqtisadi siyasətinin yalnız bir hissəsini təşkil edir.

Bir cəhəti də xüsusi vurğulamaq lazımdır ki, yeni iqtisadi şərait ölkənin milli, o cümlədən iqtisadi təhlükəsizliyini möhkəmləndirməyi, mövcud imkanlardan səmərəli istifadəni zəruriləşdirməklə bərabər, iqtisadi möhtəkirliyi dəf etməyi, iqtisadiyyatın şaxələndirilməsini, maliyyə sabitliyi üçün yaranmış risk amilinin zəiflədilməsini, mülkiyyətçilərin hüquqlarının qorunmasının və korporativ idarəetmənin gücləndirilməsini, investisiya qoyuluşlarında dövlətin payının və istiqamətlərin optimallaşdırılmasını, ixrac potensialının və onun təşviqinin artırılmasını, biznes (sahibkarlıq) - investisiya mühitinin yaxşılaşdırılmasını, sağlam rəqabətin və ölkə daxilində kooperasiyanın genişləndirilməsini daha da aktuallaşdırmışdır. Bütün bunlar "Strateji Yol Xəritəsi"ndə göstərildiyi kimi, yeni dövrün ən mühüm strateji çağırışı "kapital akkumulyasiyası" əsaslı modeldən "məhsuldarlıq (effektivlik)" əsaslı artım modelinə keçidin təmin edilməsini özündə ehtiva edir. Bir sözlə, Azərbaycan iqtisadiyyatının yeni iqtisadi modelinin əsas parametrləri və onları üzə çıxaran amillər Yol Xəritəsində konkret şərhini tapmışdır. Əsas məqsəd əldə olunmuş nailiyyətlərin qorunması və həyata keçirilən islahatların dayanıqlığının bundan sonra təmin edilməsidir.

Xarici ədəbiyyatda beynəlxalq münasibətlər, iqtisadiyyat və menecment sahələrində geniş istifadə edilən **"Yol Xəritəsi" (Road map) termini "hərəkət planı" mənasında - gələcək dövr, perspektiv üçün planlar, inkişaf ssenarisinin əyani təsviri anlamında işlədilir.** Elmi-iqtisadi ədəbiyyatda "Yol Xəritəsi" termini dedikdə müəyyən bir obyektin inkişafının ardıcıl ssenarisi başa düşülür. Yol xəritələrinin formalaşdırılması prosesini özündə ehtiva edən yol xəritələnməsi ekspert informasiyalarına əsaslanmaqla bu obyektlərin inkişafının proqnozlarının müxtəlif variantlarının hazırlanmasını həyata keçirir. Bir çox ölkələrdə yol xəritələnməsi özündə müxtəlif növ geniş analitik metodikaları cəmləşdirməklə iqtisadiyyatın planlaşdırılmasının, proqnozlaşdırılmasının və idarə edilməsinin ən səmərəli metodlarından biri kimi dəyərləndirilir.

Ənənəvi yanaşmalardan fərqli olaraq, yol xəritələri nəyin hesabına olursa olsun iqtisadi inkişafı təmin etməyi deyil, iqtisadi səmərəlilik baxımından optimal hesab edilə bilən variantların inkişaf ssenarilərinin ehtimal edilən çoxluğundan seçim aparmaq üçün çox vacibdir. Özü də bu zaman cari və resurs yüklü nəticələr yox, strateji hədəflər əsas götürülür. Yol xəritələrinin sahəvi, elmi-texnoloji, məhsullar, strateji və proqram, korporativ və s. kimi növləri geniş yayılmışdır. **İlk texnoloji yol xəritəsi 1970-ci ildə (Technology Road map) Motorola və Corning şirkətləri tərəfindən işlənib hazırlanmış və həmin şirkətlərin inkişafında çox böyük rol oynamışdır.** Ümumiyyətlə, yol xəritəsi prinsipinin tətbiqi həmin dövrdə ABŞ korporasiyalarının idarə edilməsində geniş yayılmışdır. Məhz o illərdə Amerika iqtisadiyyatı özünün ağır günlərini yaşayırdı, yüksək inflyasiya, durğunluq, getdikcə çoxalan işsizlik hökm sürürdü. Dövlət xərclərinin artırılması, əməkhaqlarının tənzimlənməsi, inflyasiyanı cilovlamaq məqsədilə tətbiq edilən fiksə olunmuş qiymətlərin də nəzərəçarpacaq faydası olmamışdır.

Azərbaycan iqtisadiyyatının strateji yol xəritələrinin üstünlüklərindən danışarkən ilk növbədə mövcud və gələcəyə hesablanmış imkanların səfərbər edilməsini, monetar və fiskal siyasətin uzlaşdırılmasını, investisiyaların və risklərin idarə edilməsinin optimallaşdırılmasını, müxtəlif dövrlərə nəzərdə tutulmuş cari və strateji məqsəd və proseslərin düzgün müəyyənləşdirilməsini, proqressiv texnologiya və məhsulların inkişaf etdirilməsini, maliyyə və marketinq proseslərinin optimallaşdırılmasını göstərmək olar. Sənədin özündə də fiskal dayanıqlığın gücləndirilməsi və davamlı monetar siyasətin qəbulu strateji hədəflərdən biri kimi dəyərləndirilmişdir. Yol xəritələrinin mühüm məziyyətlərindən biri də budur ki, strateji hədəflər konkret məqsəd və vəzifələrə sıralanmaqla onların icrası işlək nəzarət mexanizmi ilə tamamlanır. Müəyyənsizlik şəraitini də mümkün hal kimi qəbul edən yol xəritələrinin metodologiyası iqtisadi proseslərin səmərəli axınını və gələcək investisiyaların uğurluluğuna zəmin yarada biləcək analitik sxemlərin tətbiqini təşviq edir.

Azərbaycan iqtisadiyyatının yol xəritələrində diqqət çəkən əsas məqamlardan biri də məqsədlərin balanslaşdırılması, qısa, orta və uzaq gələcək müddətlər üçün nəzərdə tutulmuş və üzvi surətdə bir-biri ilə səbəb-nəticə əlaqələri xəritəsinin işlənib hazırlanmasıdır. Bu keyfiyyət özünü strateji və sahəvi məqsədlərin sintezində də büruzə verməkdədir. Bütün göstərilənlər "bazara istiqamətlənmə" (market-based) və "ehtiyatlara istiqamətlənmə" (resource-based) yanaşmalarını yüksək dəqiqliklə uzlaşdırmaqla məqsəd və vəzifələrin prioritet qiymətləndirmə şəraitində müəyyənləşdirilmişdir.

Azərbaycanın iqtisadi yol xəritələrinin növbəti məziyyəti onun kompleks variantının əsas götürülməsidir. Belə ki, bu sənədlər makroiqtisadi islahatlar və institusional dəyişikliklər istiqaməti ilə müəssisə səviyyəsində iqtisadiyyatın yeni biznes-rəqabət modelinin tətbiq istiqamətinin eyni zaman müstəvisində reallaşdırılmasını labüd sayan işlək üstünlüyə malikdir. Bununla yanaşı, pilot layihələrin yayılmasını məqsədəuyğun sayan yol xəritələri sənaye, kənd təsərrüfatı, sosial sfera və iqtisadiyyatın digər sahələrinin inkişafı üçün belə layihələrdən bəhrələnməyi aktual hesab edir. Məhz belə pilot layihələrin yaradılması və yayılması konkret investisiya layihələrinin operativ həyata keçirilməsinə, dövlətin və investorların qarşılıqlı əlaqələrinin mümkünlüyünün təsdiqlənməsinə, iqtisadiyyatın problemli nöqtələrinin çevik müəyyənləşdirilməsinə, islahat risklərinin azaldılmasına imkan verəcək ki, bunlar da öz növbəsində islahatlara ictimai etimadın yüksəldilməsi və əhali tərəfindən geniş dəstəklənməsi üçün xüsusi əhəmiyyət kəsb edir.

**Xarici təcrübədə "Yol Xəritəsi"-nin məqsəd və hədəflərindən danışarkən ÜDM-in getdikcə yüksələn templə artması, ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin gücləndirilməsi, "bilik iqtisadiyyatının" xüsusi çəkisinin çoxalması, elm, təhsil, səhiyyə və sosial təminat sahələrinə xərclərin artırılması, digər tərəfdən isə iqtisadi təhlükəsizliyin gücləndirilməsi, yığım normalarının gələcək nəsillərə qayğı nöqteyi-nəzərindən optimallaşdırılması məsələləri nəzərdə tutulur.**

Ölkəmizin strateji "Yol Xəritəsi"ndə məqsəd və hədəflər həm düzgün müəyyənləşdirilmiş, həm də mövcud situasiyanın gələcəyə səmtlənmiş inkişaf strategiyası trayektoriyasına müvafiq investisiya siyasəti və kompleks tədbirlər sistemi ilə reallaşdırılacağı nəzərdə tutulmuşdur. Məsələn, əgər "Yol Xəritəsi"ndə milli iqtisadiyyat üzrə 2020-ci ilədək strateji baxış xarici şokların mənfi təsiri nəticəsində yaranmış vəziyyətdən çıxmaq üçün qısa müddətdə iqtisadiyyatın sabitləşdirilməsi, ortamüddətli dönəmdə şaxələnmə və yeni hərəkətverici qüvvələr hesabına inkişaf xəttinin bərpa edilməsi, dövrün sonunda isə dünya iqtisadiyyatına daha çox inteqrasiya etməklə rəqabətqabiliyyətinin artırılması kimi məqsədləri qarşıya qoyursa, digər tərəfdən inkişafın davamlılığının artırılması üçün nəzərdə tutulmuş strateji baxışların gerçəkləşməsi üçün qeyri-neft sektorunda daha çox dəyərin yaradılması əsasında gəlirlərin artırılması və ədalətli bölgünün aparılması, yeni iş yerlərinin yaradılması, təbii ehtiyatlardan daha səmərəli istifadə edilməsi, iqtisadiyyatın neftdən asılılığının azaldılması, milli valyutaya etimadın artırılması kimi mühüm tədbirlərin zəruriliyi təsbit olunmuşdur.

Yuxarıda göstərilən və 2020-2025-ci illər üçün reallaşdırılması "Yol Xəritəsi"ndə əks olunan tədbirlər kompleksi azad rəqabət mühitini inkişaf etdirməklə və daha çox dəyər yaratmaqla ölkə iqtisadiyyatının rəqabətqabiliyyətinin gücləndirilməsini əsas baxış kimi ortaya qoyur. Biznes mühitinin daha da yaxşılaşdırılması, özəl investisiya mənbələrinin geniş cəlb edilməsi, dövlətin dəstəkləyici rolunun təkmilləşdirilməsi kimi tədbirlər də zəruri hesab olunmuşdur. 2025-ci ildən sonrakı dövr üçün əvvəlki iki dövrün məntiqi davamı və daha güclü iqtisadi stimul və hərəkətverici amillərin fəallaşdırılmasına və səfərbər edilməsinə söykənən, yüksək texnoloji inkişafa, optimal iqtisadi struktura hədəflənmiş tədbirlərin reallaşdırılmasının aktuallığı əsaslandırılmışdır.

"Yol Xəritəsi"ndə zəruri hesab edilən manatın kursunun stabilləşdirilməsi, kapital axınının qarşısının alınması, iqtisadiyyatın dollarsızlaşdırılması, valyuta bazarında möhtəkirliyin dayandırılması, valyuta nəzarətinin gücləndirilməsi, qiymətlərin sabitləşdirilməsi, inflyasiyanın cilovlanması, mənzil-kommunal sferasında mütərəqqi təcrübələrin tətbiqi kimi istiqamətlər də mühüm əhəmiyyət kəsb edir. Maliyyə xidməti istehlakçılarının hüquqlarının müdafiəsi və onların maliyyə savadlığının yüksəldilməsi, qiymətli kağızlar bazarının inkişaf etdirilməsi, müvafiq qurumlar arasında koordinasiyanın yaxşılaşdırılması, müasir maliyyə infrastrukturunun inkişaf etdirilməsi, beynəlxalq və xarici maliyyə qurumları ilə əlaqələrin təkmilləşdirilməsi, maliyyə bazarı iştirakçıları arasında rəqabətin inkişafı, bank və digər maliyyə xidmətlərinin keyfiyyətinin və çeşidinin yüksəldilməsi, maliyyə-bank sistemində pul bazarının daha da inkişaf etdirilməsi, nağdsız hesablaşmalar sisteminin geniş yayılması, kiçik biznesə və əhaliyə maliyyə xidmətinin inkişaf etdirilməsi və digər aspektlər də "Yol Xəritəsi"nin mühüm obyektləri sırasındadırlar. Xüsusi vurğulanmalıdır ki, pul siyasəti ilə qiymət stabilliyi arasında üzvi vəhdətin mövcudluğu və sosial-iqtisadi inkişafda oynamalı olduğu rol və təsir mexanizmləri də "Yol Xəritəsi"ndə əsas məqsədə aparan yollardan biri kimi dəyərləndirilir.

Dünyada uğurlu hesab edilən yol xəritələrində rəqabətlə bərabər, kooperasiyanın inkişaf etdirilməsi, onun müxtəlif forma və metodlarının təşkili və tətbiqi, bu işdə dövlət dəstəyinin gücləndirilməsi, biznesin təşkilində ərazi və sahələrarası kooperasiyanın mütərəqqi alətlərindən hesab edilən klasterlərdən istifadə iqtisadi tərəqqidə mühüm amil kimi dəyərləndirilir ki, bu da öz bəhrəsini və səmərəsini verir. **ABŞ-da müəssisələrin yarıdan çoxu klasterlər çərçivəsində fəaliyyət göstərir və onların payı ÜDM-də 60 faizdən artıqdır. Avropa İttifaqı ölkələrində isə işçi qüvvəsinin 38 faizdən çoxu klasterlərdə çalışır.** Məhz kooperasiyanın inkişaf etdiyi ölkələrdə rəqabətqabiliyyətlik yüksək səviyyədə olur. Təsadüfi deyil ki, sənayeləri bütövlükdə klasterləşmə ilə əhatə olunmuş Finlandiya, Danimarka, Norveç, İsveç iqtisadiyyatı rəqabətqabiliyyətliliyə görə dünyada öncül mövqedədirlər. Həmçinin, Almaniya və Fransanın da bir çox sənaye sahələrində klasterləşmə geniş yayılmışdır. Cənub-Şərqi Asiyada, Çində, Sinqapurda, Yaponiyada da klasterlərin formalaşdırılması prosesi sürətlənməkdədir. **Məsələn, Çində 30 min şirkəti, 3,5 milyon işçini özündə birləşdirən, ildə 200 milyard dollar məhsul istehsal edən 60 xüsusi klaster-zonalar mövcuddur.**

Heç də təsadüfi deyil ki, Azərbaycanda biznes mühitinin institusional əsaslarının gücləndirilməsi üçün "Yol Xəritəsi"ndə azad rəqabət mexanizminin inkişaf etdirilməsi, dövlət-biznes münasibətlərində insan amilinin rolunun azaldılması ilə bərabər səmərəlilik, hesabatlıq və şəffaflığın artırılması əsas istiqamət kimi qeyd edilmişdir. Beynəlxalq təcrübədə sübut olunmuşdur ki, iqtisadiyyatda, o cümlədən maliyyə bazarlarında şəffaflığın artması nəticəsində daha çox xarici investor cəlb etmək mümkün olur, şəffaflıq lazımi səviyyədə olmadıqda isə xarici investisiya da daxil olmaqla investisiya cəlbediciliyi nəzərəçarpacaq dərəcədə zəifləyir. Mühasibat hesablığının və auditin investorların maraqlarını müdafiə etməmələrinə, şəffaflığın pozulmasına bariz nümunə kimi ad çıxarmış ENRON hadisəsi investorların etimadlarının zəifləməsinə və bunun da nəticəsində ABŞ iqtisadiyyatına qoyulan investisiyaların 300 milyard dollardan 30 milyard dollara düşməsinə, yəni 10 dəfə azalmasına gətirib çıxarmışdır.

Daxili və xarici investisiyaların cəlb edilməsində şəffaflıqla birbaşa əlaqəsi olan maliyyə bazarlarına çıxışın yaxşılaşdırılması da mühüm bir vəzifə kimi həllini gözləyir. **"Yol Xəritəsi"ndə verilmiş təhlil materialları göstərir ki, özəl sektora verilən daxili kredit göstəricisinə görə Azərbaycan Qərbi Avropa ölkələrindən, eləcə də Türkiyə və Rusiyadan müvafiq olaraq 5,4, 3,7, 3, səhm əməliyyatlarının həcminə görə isə 67, 50, 12 dəfə geri qalır.**

"Yol Xəritəsi"ndə iqtisadi inkişafın risk amillərinin düzgün və vaxtında aşkarlanıb qiymətləndirilməsinə, habelə onların təsirinin yumşaldılması yollarına xüsusi diqqət yetirilmişdir. Bu mənada həqiqətən də risk əsaslı nəzarət modelinin tətbiqi nəzarətin daha effektiv və mütərəqqi forması kimi mühüm rola malikdir.

"Yol Xəritəsi"ndə həlli vacib sayılan digər mühüm bir məqam korporativ idarəetmə və qiymətli kağızlar bazarının fəaliyyəti ilə əlaqədardır. Belə ki, aparılmış təhlillər göstərir ki, açıq səhmdar cəmiyyətlərinin korporativ idarəetmə standartlarının zəif inkişaf etməsi, şəffaflığın aşağı olması kapitalın qiymətli kağızlar bazarı vasitəsilə cəlb edilməsini məhdudlaşdırmışdır. Ona görə də "Yol Xəritəsi"nin əsas strateji hədəfləri sırasında maliyyə xidmətlərində şəffaflığın və səmərəliliyin artırılması üçün infrastrukturun təkmilləşdirilməsi təsbit olunmuşdur. Bunun da nəticəsində ölkədə fəaliyyət göstərən iri şirkətlərin əhəmiyyətli hissəsi listinqə daxil olacaq, yerli və xarici investorlar bu şirkətlərin emissiya etdiyi qiymətli kağızlarla aktiv ticarət əməliyyatları aparılmasında inamlı olacaqlar. Şəffaflığın artması və texniki infrastrukturun təkmilləşməsi nəticəsində əməliyyatların aparılması asanlaşacaq. Şəffaf mühit investorlara riskləri və gözlənilən gəlirləri daha yaxşı qiymətləndirmək və əsaslandırılmış qərarlar vermək imkanı yaradacaq.

Milli valyutanın devalvasiyası ilə bağlı "Yol Xəritəsi"ndə qeyd olunmuş belə bir fikir də müstəsna əhəmiyyət kəsb edir ki, müasir iqtisadiyyatın daha çox davranış iqtisadiyyatına meyil etməsi, o cümlədən maliyyə-bank xidmətləri istehlakçılarının informasiyaya çıxış imkanlarının genişlənməsi diqqətin pul siyasətinin şəffaflığı və hesabatlığı üzərində fokuslaşmasını labüd edir.

İdarəolunmada şəfafflığı artırmaq son illər həyata keçirilən islahatlarda əvvəllər də vurğulanmışdır. Bu istiqamətdə bir sıra konkret müddəalar Prezidentin 2016-cı il 5 sentyabr tarixli "Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamında əks olunmuşdur. Ölkəmizin iqtisadi imkanları üzrə açıqlanan məlumatların əhatəlilik səviyyəsinin və keyfiyyətinin artırılması, məlumatların açıqlanması üzrə şəffaflığın artırılması daha dəqiq və məlumat əsaslı qərarların verilməsi imkanı yaratmaqla, bütün bazar iştirakçılarının maraqlarına xidmət etdiyi nəzərə alınaraq Yol Xəritəsində bu sahəyə xüsusi yer ayrılmışdır. Sənəddə göstərilir ki, daha səmərəli qərar verilməsi sahəsində həyata keçiriləcək tədbirlərə statistika infrastrukturunun gücləndirilməsi də daxildir. İnkişafın, iqtisadi-maliyyə və sosial həyatda baş verən dəyişiklikləri əks etdirib müəyyənləşdirən statistikanın təkmilləşdirilməsi problemi ölkə prezidenti İlham Əliyevin daim diqqət yetirdiyi məsələlərdəndir.

Prezidentin qeyd etdiyi kimi: "Biznes, investisiya mühitinin yaxşılaşdırılması, iqtisadi, maliyyə sektorlarının, vergi, gömrük orqanlarının tam şəffaflaşması, vergi bazasının genişləndirilməsi, uçotun, statistikanın düzgün aparılması - bax, bütün bunlar çox vacib olan məsələlərdir... Bizim statistikamız da aparıcı ölkələrin statistikasına xas olan bütün əlamətləri özündə ehtiva etməlidir. Çünki əsas budur, məlumatdır. Biz dəqiq bilməliyik harada nə işlər görülür, hansı məhsullar istehsal olunur. Əgər belə olmasa, gələcək fəaliyyətimizi planlaşdırmaq çətin olacaqdır".

Müəssisələr, menecerlər, bazar infrastrukturu iştirakçıları üçün statistik məhsulların təqdimi də mühüm əhəmiyyət kəsb edir. Bu işdə statistika ilə yanaşı, müstəqil auditin də əhəmiyyəti və məsuliyyəti böyükdür. İqtisadi subyektlərin əksəriyyətinin hesabatlarının auditorlar tərəfindən təsdiqləndiyi tələb olunan bir şəraitdə maliyyə-iqtisadi göstəricilərinin düzgünlüyünə statistikadan çox audit məsuliyyət daşıyır. Başqa sözlə, bazar iqtisadiyyatı şəraitində statistik göstəricilərin keyfiyyəti və düzgünlüyü auditorun iqtisadi inkişafda rolunu bir daha təsdiqləyir və auditin keyfiyyətinə tələbləri qat-qat artırır.

"Yol Xəritəsi"ndə konsolidasiya edilmiş prudensial nəzarət və hesabatlıq sisteminin olmaması ümumi risk profilinin qiymətləndirilməsi zamanı çətinliklərin yaranması səbəblərindən biri kimi dəyərləndirilir. Prudensial nəzarət, əslində, daha çox tənzimlənmə funksiyasını yerinə yetirməklə limit və məhdudiyyətlər sistemini, habelə məqbul risk səviyyəsini nəzarətdə saxlayır və investorların, əmanətçilərin, səhmdarların və digər maraqlı tərəflərin mənafeyini qoruyur. Nəzarətin bu mütərəqqi forması artıq yol verilmiş nöqsan və pozuntuların aşkarlanmasından da çox belə neqativ halların əvvəlcədən yaranma səbəblərinin aradan qaldırılmasını əhatə edir.

Qeyri-neft sahələrində rəqabətqabiliyyətliyin gücləndirilməsinin mühüm şərtlərindən biri olan kapitalın və istehsal güclərinin təmərküzləşməsi, habelə istehsal kooperasiyasının genişləndirilməsi kimi proseslər ölkə iqtisadiyyatının bir çox sektorlarında konsolidə hesabatlığın və prudensial nəzarətin tətbiqini iqtisadi səmərəlilik baxımından daha da aktual edir. Bu məqsədlə, yəqin ki, konsoldasiya edilmiş prudensial nəzarət mexanizminin yaradılması üçün "Yol Xəritəsi" hazırlanacaq və tədbirlərin icrasına başlanacaq.

Fikrimizcə, yuxarıda göstərilənlərdən əlavə, ən yaxın vaxtlarda **"Manatın kursunun stabilləşdirilməsi", "Kapital axınının qarşısının alınması və deofşorizasiya", "Xarici investisiyaların cəlbi", "İqtisadiyyatın dollardan azad edilməsi", "Kooperizasiya iştirakçılarının maraqlarının uzlaşdırılması və klasterləşmə", "Qiymətlərin stabilləşdirilməsi"nə dair yol xəritələri işlənib hazırlanmalıdır.** Bunlardan əlavə, strateji idarəetmə sisteminə dair yeni konsepsiyanın yaradılması da mühüm əhəmiyyət kəsb edərdi. Bu yerdə Prezident

**İlham Əliyevin sözlərini xatırlatmaq istərdik: "Azərbaycanda görülən işlər dünyanın ən inkişaf etmiş ölkələri səviyyəsində olmalıdır. Biz o səviyyəyə qalxmalıyıq. Biz ona yaxınlaşmışıq, bir çox hallarda lap yaxınlaşmışıq. Amma hələ böyük işlər görülməlidir. Ölkəmizdə bütün işlər - iqtisadiyyat, sosial siyasət və bütün başqa məsələlər müasir səviyyədə olmalıdır. İnsanlar rahat yaşamalıdır, sosial ədalət prinsipləri tam şəkildə bərqərar olmalıdır. Nöqsanlarla çox ciddi mübarizə aparılmalıdır və aparılır. Bu sahədəki fəaliyyətimizi daha da gücləndirməliyik".**

Tam yəqinliklə demək olar ki, Azərbaycanın "Yol Xəritəsi"ndə göstərilən mexanizmlərin işlənib hazırlanması və tətbiqi yeni qlobal reallıqda Azərbaycan iqtisadiyyatının düzgün istiqamətləndirilməsi və inkişafının sürətləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir və gələcək inkişafımıza möhkəm zəmin yaradır.

## UNEC xəbərləri

# UNEC Dünya Bankının nəşrlərinə çıxış imkanı əldə edəcək



Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə təhsil məsələləri meneceri Christian Aedo və təhsil məsələləri üzrə baş mütəxəssisi Jason Allen Wiever UNEC-də olub.
UNEC-in rektoru, professor Ədalət Muradovla görüşdə qonaqlara İqtisad Universiteti barədə ətraflı məlumat verilib. Rektor dünya səviyyəli universitetlər sırasında qərarlaşmağı hədəfləyən UNEC-in beynəlxalq əlaqələrinə xüsusi diqqət çəkib. London Universiteti (University of London) - London İqtisadiyyat Məktəbinin (London School of Economics) bakalavr diplomunu UNEC-də əldə etmək imkanları və Fransanın Monpelye Universiteti ilə ikili diplom proqramından söz açıb. Beynəlxalq İqtisadiyyat Məktəbi və UNEC Biznes Məktəbinin fəaliyyətini vurğulayıb. Dünya Bankının nümayəndələri bildiriblər ki, səfərlərinin məqsədi Azərbaycanın ali təhsil sistemindəki prioritetlərini öyrənməkdir.
Görüşdə Dünya Bankının UNEC-in inkişaf strategiyasına dəstəyi müzakirə edilib. UNEC-in Dünya Bankının təhsilyönümlü nəşrlərinə çıxış əldə etmək imkanı, eyni zamanda, beynəlxalq təhsil və tədqiqat layihələrində əməkdaşlığın genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb.

# UNEC Türkiyə universitetləri ilə təcrübə mübadiləsi aparacaq

UNEC-in müəllimlərindən ibarət yeni nümayəndə heyəti Türkiyənin nüfuzlu Uludağ, Sakarya və Süleyman Dəmirəl universitetlərinə ezam olunacaqlar. Layihənin əsas məqsədi müəllimlərin elmi potensialının artırılması, xarici universitetlərin təcrübəsinin öyrənilməsidir. Səfər zamanı həmin universitetlərin ali təhsil sistemi, tədris edilən ixtisas fənləri, sillabuslar, dərslik, imtahan, laboratoriya və kitabxana sistemi ilə tanışlıq nəzərdə tutulub. UNEC müəllimlərinin türkiyəli həmkarları ilə qarşılıqlı təcrübə mübadiləsinin aparılması, xüsusən də elmi tədqiqatların həyata keçirilməsi, birgə elmi məqalələrin yazılması, müvafiq dərsliklərin hazırlanması ilə bağlı müzakirələrin aparılması da proqrama daxil edilib. Nümayəndə heyəti ilə görüşən rektor, professor Ədalət Muradov UNEC-in xarici universitetlərlə əməkdaşlığının daha da genişləndirilməsində belə səfərlərin vacib rol oynadığını vurğulayıb. Ötən tədris ilində universitetin 15 professorunun qonşu ölkənin tanınmış ali məktəblərinə ezam olunduğunu diqqətə çatdıran rektor gələcəkdə belə səfərlərin dünyanın nüfuzlu universitetlərinə təşkil olunacağını xüsusi qeyd edib.
Dekan və kafedra müdirlərinin təmsil olunduğu 18 əməkdaşın Türkiyəyə səfəri fevral ayının 6-dan 10-a kimi nəzərdə tutulub.



# "Nar"-ın dəstəyi ilə təlim kursları start götürdü



"Nar", "Uğur akademiyası" və "Asan könüllüləri" tərəfindən birgə həyata keçirilən və ünsiyyət məhdudiyyətli vətəndaşların cəmiyyətə inteqrasiya etdirilməsini qarşısına məqsəd qoyan "Təlim məktəbi" sosial layihəsi növbəti mərhələyə keçir. Layihənin üçüncü mərhələsi çərçivəsində 25 nəfər ünsiyyət məhdudiyyətli gənc üçün rabitə cihazlarının təmiri üzrə təlim kursları keçiriləcəkdir. Kurslar rabitə cihazlarının təmiri sahəsində 5 ildən çox təcrübəyə malik olan mütəxəssis tərəfindən aparılacaqdır. Təlim boyu iştirakçı gənclərə mobil telefon təmiri ilə yanaşı, əsas smartfon işləri (format, müxtəlif proqramların yazılması, izləmə-video sistemlərinin qoşulması və s.) öyrədiləcəkdir. "Təlim məktəbi" kurslarının üçüncü mərhələsinin 2 ay müddətində davam etməsi planlaşdırılmışdır.
Qeyd edək ki, "Həyat bizimlə daha rəngarəng" şüarı altında həyata keçirilən "Təlim məktəbi" layihəsinin əsas məqsədi ünsiyyət məhdudiyyətli şəxslərin peşə hazırlığına dəstək olmaq, onların iş bacarıqlarının artırılmasına çalışmaqdır. Üç ay davam edən layihə müddətində nitq və eşitmə imkanları məhdud olan 18-30 yaş arasındakı 75 gəncin 3 istiqamət üzrə – rabitə cihazı təmiri, kompüter təmiri və dizayn proqramları sahəsində bilik, bacarıq və səriştə qazanması məqsədilə peşəkar mütəxəssislər tərəfindən xüsusi təlimlər keçiriləcək.

# Tələbələr "Nar" tərəfindən mükafatlandırıldı

"Nar" özünün korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində Azərbaycan Texniki Universiteti (AzTU) ilə əməkdaşlıq əlaqələrini uğurla davam etdirir. Ötən il Azərbaycan Texniki Universitetində xüsusi avadanlıqlarla təchiz edilmiş "Nar" laboratoriyasının açılışını etmiş və layihə çərçivəsində tədris müəssisəsində müxtəlif maarifləndirici tədbirlər keçirmiş mobil operator AzTU ilə olan əlaqələrini müxtəlif istiqamətlərdə inkişaf etdirir.
7 fevral 2017-ci il tarixdə AzTU-da təşkil edilən növbəti tədbirdə 2016-2017-ci dərs ilinin ilk tədris semestrində Radiotexnika və rabitə fakültəsinin elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi ixtisası üzrə təhsil alan və ən yaxşı nəticələri göstərən tələbələrin mükafatlandırılması mərasimi keçirildi. Qış imtahan sessiyasında göstərdikləri yüksək nəticələrə uyğun olaraq, 1-ci, 2-ci və 3-cü yerləri tutmuş tələbələr – Məmmədaslan Quliyev, Xəyalə Həsənli və Günay Abbasova mobil operatordan dəyərli hədiyyələr qazandılar.



## Gənc tədqiqatçının tribunası

# Qlobal qeyri-stabillik şəraitində Azərbaycanın enerji strategiyası

(əvvəli qəzetin 3-cü sayında)

**Layihələrin Geosiyasi əhəmiyyəti:** Azərbaycanın təşəbbüskarı və iştirakçısı olduğu layihələrin geosiyasi əhəmiyyəti və yüklülüyünün qiymətləndirilməsi xüsusilə maraqlıdır. Təəssüflər olsun ki, layihələrin icrası geosiyasi cəhətdən spekulyasiyaların artmasına səbəb olmuşdur.
Azərbaycan üçün bütün enerji layihələri istisnasız olaraq iqtisadi əhəmiyyət kəsb edir. Tədricən atom enerjisindən ekoloji cəhətdən daha təmiz enerji mənbəyi sayılan təbii qaza keçidi həyata keçirən Avropa üçün Azərbaycan qazının həm ekoloji, həm də iqtisadi (red. bazarda qiymətə təsir göstərəcək yeni təklifin yaradılması) cəhətdən əhəmiyyəti var.
Ötən illərdən başlayaraq Avropa məkanında, xüsusilə Ukrayna ilə



Rusiya arasında baş vermiş hərbi münaqişə Rusiyanın qaz nəqli marşrutlarının dəyişdirilməsi və bununla da "Türk axını" layihəsi üzrə Qara Dənizin dibiylə yeni bir qaz kəməri layihəsinin həyata keçirilməsi istiqamətində danışıqlara start vermişdir. Xüsusilə, onu da qeyd etmək lazımdır ki, bu layihə qaz təchizatının həcminə təsir göstərməyərək, sadəcə marşrutun istiqamətinin dəyişdirilməsini özündə əks etdirir. Yeni boru vasitəsilə nəql ediləcək qazın həcmi və istehlakçı ölkələrlə bağlı artıq müvafiq müqavilələr imzalanmışdır. Bu layihənin reallaşdırılması nəticəsində Türkiyə Avropanın enerji mərkəzinə çevriləcəkdir ki, bu da 2019-cu ilədək Türkiyəyə 20 mlrd. ABŞ dolları sərmayə yatırmağa planlaşdıran ölkəmiz üçün strateji-iqtisadi əhəmiyyət kəsb edir. Onu da qeyd etmək lazımdır ki, adıçəkilən layihə Azərbaycandan Türkiyəyə nəql edilən qazın qiymətinə təsir göstərməyəcəkdir. Belə ki, hal-hazırda paralel olaraq Azərbaycan, Rusiya və İrandan qaz idxal edən Türkiyənin 2030-cu ilədək tələbatı yüksələn xətt üzrə dəyişəcəkdir.
Azərbaycan həmçinin "altılıq ölkələri"nin İranla bağlı qəbul etdiyi qərarlar və OPEC-in dünya neft qiymətlərinə təsir göstərəcək addımlarını izləməkdə davam edir və bununla da balanslaşdırılmış xarici iqtisadi addımlar atır.
Sonda onu qeyd etməliyik ki, dünyadakı cari qeyri-stabilliyin gələcək illərdə də davam etməsi gözlənilir və hər bir ölkə, xüsusilə strateji əhəmiyyətli coğrafi məkanda yerləşmiş Azərbaycan baş verə biləcək istənilən dəyişikliyə hazır olmalıdır. Düşünürük ki, bu kontekstdə əsas diqqət iqtisadiyyatın neft və qaz amilindən asılılığını minimuma endirəcək tədbirlərin həyata keçirilməsi, daxili bazarda və dünya bazarında sağlam rəqabət mühitinin formalaşdırılması, yeni innovativ layihələrin dəstəklənməsi və dayanıqlı iqtisadi modelin yaradılmasına yönəlməlidir.
Müasir dövrdə dünyada baş verən iqtisadi və siyasi qeyri-stabilliyə rəğmən, Azərbaycanın təşəbbüskarı və iştirakçısı olduğu layihələr birbaşa və ya dolayısıyla Şərq-Qərb enerji dəhlizinin gələcək inteqrasiyasına dəstək olacaqdır.
Enerji layihələri təkcə Azərbaycan üçün deyl, digər ölkələrə də faydalar gətirəcək. Məsələn: Cənub qaz dəhlizi çərçivəsində Gürcüstan "Şahdəniz-2" layihəsindən hasil edilən qazın alıcısı kimi faydalanacaq. Bu ölkə, eləcə də Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsindən bəhrələnəcək. Buradakı yerli təchizatçılar öz mal və xidmətlərini təqdim edəcək, vəsait qazanacaqlar. Tikinti obyektlərində xeyli Gürcüstan vətəndaşı işlə təmin olunacaq. Habelə, Türkiyə "Şahdəniz" layihəsinin ikinci mərhələsinin işə düşməsindən sonra özünün qaza olan tələbatının 25%-ni birbaşa bu layihə vasitəsilə ödəyəcəkdir. TANAP-ın tikintisi zamanı minlərlə yeni iş yeri açılacaq, ölkənin qaz nəqletmə infrastrukturu zənginləşəcək. Beləliklə, Türkiyə də Avropanın enerji təhlükəsizliyində əhəmiyyətli iştirakçıya çevriləcək. Albaniya, Yunanıstan və İtaliya TAP vasitəsilə xeyli həcmdə birbaşa xarici investisiya əldə edəcəklər. Bu ölkələrdə də yüzlərlə yerli sakin kəmərin tikintisində işlə təmin olunacaq. Yunanıstan, Bolqarıstan və İtaliyadakı istehlakçılar üçün yeni yanacaq mənbəyi yaradılacaq. Albaniya öz qaz sənayesini inkişaf etdirmək imkanı qazanacaqdır.
Lakin onu da qeyd etməliyik ki, 2015-ci ilin sonlarından başlayaraq dünya enerji bazarında baş verən ciddi geriləmələr, habelə bazarda qiymətlərin tənzimlənməsiylə bağlı süni əngəllərin yaradılması iştirakçı ölkələr üçün ciddi iqtisadi problemlər yaratmışdır.
Xüsusilə onu da vurğulayaq ki, Qlobal bazarda baş verən qeyri-stabilliyin daxili iqtisadiyyatlar üçün mənfi tərəfi olduğu kimi müsbət tərəfləri də vardır. Məsələn, ötən ilin sonlarında başlayaraq dünya bazarında neftin qiymətinin sürətlə ucuzlaşması, Azərbaycan üçün böyük fəsadlar törətsə də, respublika prezidenti cənab İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində iqtisadiyyatın diversifikasiyalaşdırılması prosesinə başlanıldı. Müxtəlif sənaye və kənd təsərrüfatı sahələrinə dövlət tərəfindən subsidiyalar ayrıldı, "Made in Azerbaijan" brendinin yaradılması, habelə ASAN mərkəzləri çərçivəsində ailə təsərrüfatlarına yardım edəcək ABAD xidmətinin işə düşməsi və beləliklə də, iqtisadi problemlərin azaldılması istiqamətində böyük dərəcədə müsbət addımlar atıldı.



*Salayev Azər Çingiz oğlu,*
*Qərb Universitetinin doktorantı*

# Kimsəsiz uşaqlara pulsuz göz müayinələri



Azercell Telekom MMC-nin dəstəyi ilə fəaliyyət göstərən "Mobil Göz Klinikası"nın həkimləri görmə çətinliyi olan uşaqları aşkarlamağa və müxtəlif göz xəstəliklərindən əziyyət çəkənləri müalicə etməyə davam edirlər. Klinikanın həkimləri bu dəfə Bilgəh qəsəbəsində yerləşən 11 saylı inteqrasiya təlimli internat məktəbindəki kimsəsiz uşaqlara baş çəkiblər. İnternat məktəbində məskunlaşan uşaqların hamısı həkimlər tərəfindən müayinə edilib. Müayinələrin nəticələrinə əsasən ehtiyacı olan uşaqlara müalicələr təyin olunub, eynək reseptləri yazılıb.

# Media nümayəndələri Bakcell Məlumat Mərkəzinin qonaqları olublar



Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti Kütləvi İnformasiya Vasitələrinin təmsilçilərini şirkətin Məlumat Mərkəzinə dəvət edib. Media nümayəndələri Məlumat Mərkəzinin gündəlik işi ilə tanışlıq zamanı 555 qısa nömrəsinə edilən zənglərin peşəkar operatorlar tərəfindən necə cavablandırılması və daxil olan müraciətlərə əsasən əlaqəli bölmələrlə birlikdə müxtəlif əməliyyatların necə həyata keçirildiyinin canlı şahidi olublar. Məlumat Mərkəzinin qrup rəhbəri Elmar Cəfərov və Kanalların idarə olunması üzrə qrup rəhbəri Emin Əskərsoy qonaqlara Məlumat Mərkəzinə daxil olan müraciətlərin idarə edilməsi və son iki il ərzində əldə olunan nailiyyətlər barədə məlumat veriblər. "Məlumat Mərkəzində işin necə qurulduğunun abunəçilərimizin çoxuna maraqlı olduğunu nəzərə alaraq böyük məmnuniyyətlə media nümayəndələrini iş yerimizə dəvət etdik. Abunəçilərimizə daha yaxın olmağımızda onların müstəsna rolu var", - deyə Bakcell şirkətinin müştəri xidmətləri üzrə baş direktoru xanım Selda Bostancıoğlu bildirib.

# “Public relations” tədbirləri

**(əvvəli ötən sayımızda)**

İctimai rəy ictimai hadisələrə, müxtəlif qrupların, təşkilatların, ayrı-ayrı fərdlərin fəaliyyətinə münasibətdən (gizlin və aşkar) ibarət olan şüurun kütləvi vəziyyətidir. Bu, gerçəklik haqqında mülahizələrin məcmusudur. Rəy müsbət, mənfi (neqativ), neytral və əhəmiyyətsiz ola bilər.

“Public relations” işinin səmərəli təşkili sahibkarlıq fəaliyyətinin planlaşdırılmasında və təşkilində çatışmazlıqları operativ aşkar etməyə imkan verir. “Public relations” haqda biliklərə malik olmadan ictimaiyyətlə səmərəli əməkdaşlığı müəyyən etmək qeyri-mümkündür.

“Public relations”ın mühüm elementi işgüzar ünsiyyətdir ki, o, firmanın sahibkarlıq fəaliyyətinin cari və perspektiv vəzifələrinin həllinə yönəldilmişdir. İşgüzar ünsiyyət arzu olunan nəticəyə nail olmaq üçün biznes üzrə tərəfdaşlarla kontakta, yəni təmasa girməyə imkan verən fəaliyyətdir.

Bundan əlavə, “publicity” anlayışı da mövcuddur ki, “public relations” və onun arasında sıx əlaqə mövcuddur. Hərfi mənada “publicity” dedikdə müəssisənin və onun fəaliyyətinin ictimailiyi, populyarlığı, məşhurluğu başa düşülür.

Beləliklə, “public relations” müxtəlif mütəxəssislərin, o cümlədən psixoloqların, sosioloqların, iqtisadçıların, jurnalistlərin və b. səylərini sintez edən elm və sənətdir. Onlar firmanın nüfuzunun inkişafı üzrə kampaniyanı işləyib hazırlamalı və həyata keçirməlidirlər. PR-ın əsas prinsipləri aşağıdakılardır:

-Özü haqqında yalnız doğru və həqiqəti demək (lakin heç kim təsdiq etmir ki, bütün həqiqəti demək lazımdır). PR-ın mühüm xüsusiyyətlərindən biri dərc olunmalı informasiyanı heç bir halda dərc olunmayan informasiyadan ayırmaqdan ibarətdir.
- Həqiqətlə əlaqəli “bağları” axtarın;
- Yaxşı PR gözəçarpan və üstəlik zəhlətökən (bezdirici, qıcıqlandırıcı) olmamalıdır;
- Heç bir halda ölçü hissini yaddan çıxarmaq olmaz;
- Kütləvi informasiya vasitələrində materialların dərc edilməsi üçün PR sistemində bu materialların hazırlanması sahəsində ixtisaslaşan bütün jurnalistlərin materiallarının



verilməsi üslubu və maraqlar diqqətlə izlənilməlidir;
- Hər hansı bir firma sosial çevrədə o zaman özünü normal hiss edir ki, öz həyatı və fəaliyyəti haqqında ictimaiyyətə daima doğru və vaxtında məlumat verir, ictimaiyyət isə öz növbəsində bu firma haqqında obyektiv təsəvvürə malik olur. Firmanın mövqeyi nə qədər doğru olarsa, cəmiyyətdə onun fəaliyyətinə etimad, inam, rəğbət, hörmət də bir o qədər çox olur.

PR proqramları forma üçün əlverişli sosial iqlim və ya ən azı mümkün ziddiyyətləri çıxaran sosial, qeyri-aqressiv mühit yaradır. Beləliklə, firmanın həm kommunikativ, həm də kommersiya vəzifələri xeyli dərəcədə həll olunur.

“Public relations”ın xüsusi məqsədləri (vəzifələri) aşağıdakılardır:
- firmanın imicinin formalaşması;
- kütləvi informasiya vəzifələri ilə firmanın əlaqələrinin təmin edilməsi;
- əhali ilə iş;
- ictimai təşkilatlarla iş;
- hakimiyyət orqanları ilə iş;
- tərəfdaşlarla və rəqiblərlə iş;
- ictimaiyyətin məlumatlandırılması;
- ictimai rəyin qabaqcadan öyrənilməsi;
- ictimai rəyin izlənməsi (monitorinqi);
- nümayəndəlik fəaliyyəti;
- münaqişələrin profilaktikası;
- firmanın “dostlat dairəsi”nin formalaşması;
- firma böhranının aradan qaldırılması;
- sponsorluq.

Əks əlaqə sistemi vasitəsilə PR cəmiyyət və “birinci əldən” olan istehlakçılar haqqında doğru və həqiqi informasiyanın mənbəyidir və bu, yüksək dərəcədə mötəbərliliyi müəyyən etməyə imkan verir ki, istehlakçıların hansı kateqoriyası üçün məhsul istehsal etmək olar, onun bazar yeniliyi nə qədər kifayətedici dərəcədə olmalıdır, rənglərin mümkün hərəkətləri necədir və s.

Müasir peşəkar biznesdə onun sürətlənməsi meyli dəqiq nəzərdən keçirilir. Deməli, bilik səviyyəsində qabaqlama rəqabət mübarizəsində ciddi əsas dəlilə (vasitəyə) çevrilir. PR iqtisadi müdrikliyi reallaşdırmağa, müstəqil məsləhətçi qismində ictimaiyyətdən istifadə edərək, cəmiyyətin tələbatları və bazarın dinamikası haqqında ictimaiyyətlə çoxcəhətli təmaslar vasitəsilə həqiqi informasiyanın vaxtında toplanmasında “ali təyyarəçilik məharəti” göstərməyə imkan verir. Beləliklə, PR rəqibləri qabaqlamağa və vaxt udmağa şərait yaradır. Bazarda vaxt amili isə çox vacibdir. Firmanın yerinə yetirdiyi PR tədbirləri yalnız xarici mühitə yox, həm də firmanın daxilinə, yəni dostcasına işə təsir göstərən qeyri-formal atmosferin, əlverişli insani münasibətlərin formalaşması məqsədilə öz əməkdaşlarına yönəldilmişdir. Müasir interyerlər, səliqəli, ciddi təmkinli, intizamlı, qulluq göstərən əməkdaşlar – bütün bunlar firma üslubunun və imicinin elementləridir ki, onların da cəmiyyətə təsiri çox böyükdür. “Public relations” tədbirləri (əlverişli ictimai rəyin formalaşması) reklamverici təşkilata ictimaiyyətin geniş təbəqələrinin yaxşı münasibətlərinin yaradılmasına yönəldilmiş kompleks tədbirlərdir. Bütün bunların son məqsədi buraxılan əmtəələrin və məhsulların və ya təqdim edilən xidmətlərin satışının stimullaşdırılmasıdır.

**(davamı gələn sayımızda)**

**F.M.Qarayev,**
**BDU-nun dosenti**

# Təsərrüfat subyektləri rəhbərlərinin nəzərinə!

Sizi ölkədə həyata keçirilən iqtisadi islahatların mühüm istiqaməti olan şəffaflığın artırılmasında fəal iştirak etməyə və bu məqsədlə müstəqil auditorların xidmətlərindən istifadə etməyə çağırırıq.

Auditorlar Palatası bu istiqamətdə Sizin hər bir sorğunuzu cavablandırmağa və müvafiq dəstək göstərməyə hazırdır.

Qanunvericiliyin tələblərinə uyğun olaraq aşağıda göstərilən təsərrüfat subyektləri 2016-cı il üzrə maliyyə (mühasibat) hesabatlarının düzgünlüyünü auditor rəyi ilə təsdiq etdirməlidirlər.

| | | |
|---|---|---|
| 1 | Banklar və digər kredit təşkilatları | “Banklar haqqında” Azərbaycan Respublikasının 2004-cü il 16 yanvar tarixli 590-IIQ saylı Qanununa (maddə 8, 9, 44, 45, 46 və s.) əsasən. |
| 2 | Səhmdar cəmiyyətləri | Azərbaycan Respublikasının Mülki Məcəlləsinə (m.107.6) əsasən. |
| 3 | Sığorta təşkilatları və cəmiyyətləri | “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ saylı Qanununa (m.74) əsasən. |
| 4 | İnvestisiya fondları | “İnvestisiya fondları haqqında” Azərbaycan Respublikasının 2010-cu il 22 oktyabr tarixli 1101-IIIQ saylı Qanununa (m.26) əsasən. |
| 5 | Maliyyə-sənaye qrupları | “Maliyyə-sənaye qrupları haqqında” Azərbaycan Respublikasının 1996-cı il 10 iyun tarixli 123-IQ saylı Qanununa (m.16) əsasən. |
| 6 | Məhdud məsuliyyətli cəmiyyətlər | Azərbaycan Respublikasının Mülki Məcəlləsinə (m.91.4) əsasən. |
| 7 | Fond və birjalar | Azərbaycan Respublikasının Mülki Məcəlləsinə (m.115.3) əsasən. |
| 8 | Qiymətli kağızların emitentləri | Azərbaycan Respublikasının Mülki Məcəlləsinə (m.1078) əsasən. |
| 9 | Büdcədənkənar fondlar | Azərbaycan Respublikasının Mülki Məcəlləsinə (m.115) əsasən. |
| 10 | İctimai əhəmiyyətli qurumlar | “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununa (m.12) əsasən. |
| 11 | Bələdiyyələr və bələdiyyə müəssisələri | “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında” Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 772-IQ saylı Qanununa (m.10,13), “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının 2002-ci il 2 iyul tarixli 358-IIQ saylı Qanununa (m.11.14, 39.1) əsasən. |
| 12 | Birləşdirilmiş (konsolidə edilmiş və icmal) hesabatlar təqdim edən hüquqi şəxslər (holdinqlər) | “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununa (m.12) əsasən. |
| 13 | Təbii inhisar fəaliyyəti subyektləri | “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununa (m.12) əsasən. |
| 14 | Publik hüquqi şəxslər | “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli qanununa və onların nizamnamələrinə əsasən. |
| 15 | Kənd təsərrüfatı kooperativləri | “Kənd təsərrüfatı kooperasiyası haqqında” Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli qanununa (m.5.4) əsasən. |
| 16 | Siyasi partiyalar | “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununa (m.14.6) əsasən. |

Xatırladırıq ki, qanunvericiliklə tələb olunan qaydada auditdən keçməməyə görə Azərbaycan Respublikasının “İnzibati Xətalar Məcəlləsi”nin 464-cü maddəsi ilə inzibati məsuliyyətə cəlb olunma nəzərdə tutulmuşdur.

Sərbəst auditorlar və auditor təşkilatları barədə məlumatları Azərbaycan Respublikası Auditorlar Palatasının internet səhifəsindən əldə edə bilərsiniz (http://www.audit.gov.az).

***Azərbaycan Respublikasının Auditorlar Palatası***

# Azərbaycanda işləyən əcnəbilər artır

2017-ci il fevralın 1-nə Azərbaycanda fərdi uçot sistemində qeydiyyatda olan xarici vətəndaşların sayı 34 min 213 nəfərə çatıb ki, bu da ilin əvvəlinə olan göstəricidən 0,8% çoxdur. “Bu ilin yanvar ayında Dövlət Sosial Müdafiə Fondunun fərdi uçot sistemində 273 nəfər əcnəbi işçiyə fərdi şəxsi hesab açılıb”, - deyə məlumatda bildirilir. Azərbaycanda fərdi uçot sistemində fərdi şəxsi hesabı olan əcnəbilər 125-dək ölkəni təmsil edirlər.

Onların arasında sayca daha çox olan Türkiyə, Gürcüstan və Rusiya vətəndaşlarıdır.

1 yanvar 2017-ci il tarixinə fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanların ümumi sayı 33 min 94 nəfər təşkil edib.




Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri, akademik Ziyad Səmədzadə iqtisadiyyat naziri Şahin Mustafayevin əzizi

**RÖVŞƏN KƏRİMOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan İqtisadçılar İttifaqı və “İqtisadiyyat” qəzetinin kollektivi iqtisadiyyat naziri Şahin Mustafayevin əzizi

**RÖVŞƏN KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri, akademik Ziyad Səmədzadə Əhəd Abıyevə qardaşı

**İBRAHİM ABIYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan İqtisadçılar İttifaqı və “İqtisadiyyat” qəzetinin kollektivi Əhəd Abıyevə qardaşı

**İBRAHİM ABIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. “İQTİSADİYYAT” qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, “Azərmedia” MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 3150